QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 127 (5847) **17 iyul** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Xalqın rifahı faktorunda İlham Əliyev LİDERLİYİ amili

*Prezident İlham Əliyev: "Azərbaycan bundan sonra da uğurla, inamla inkişaf edəcək, tərəqqi və qələbələr yolu ilə gedəcək"*



Səh 2

3

Əli Həsənov: "Görünür, iki qonşu dövlət arasında dostluq kimlərisə narahat edir"



4

Amina Mohammed: Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində Azərbaycanın atdığı addımlar təqdirəlayiqdir



7

Güclü və azad medianın inkişafına xor baxanlar...



# Xalqın rifahı faktorunda İlham Əliyev LİDERLİYİ amili

## *Prezident İlham Əliyev: "Azərbaycan bundan sonra da uğurla, inamla inkişaf edəcək, tərəqqi və qələbələr yolu ilə gedəcək"*

***Bu gün, birmənalı şəkildə, demək olar ki, Azərbaycanda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində, əhalinin bütün təbəqələrinin, xüsusilə də, sosial cəhətdən həssas insanların sosial-rifah halı daha da yaxşılaşır.***



"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısı İlham Əliyevin ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini və gerçəkliyə adekvat olduğunu göstərmişdir. Bu illər ərzində, insanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yeniləşir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda, insanların düşüncələri də dəyişib. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır.

Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası ölkədə, Ulu Öndər Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm."



Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, son 16 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir.

16 illik Prezidentliyi dövründə Cənab İlham Əliyev xalqın etimadını əməli fəaliyyəti, xeyirli və gərəkli işləri ilə doğruldub. Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində, orta aylıq əməkhaqqı 7, minimum əməkhaqqı isə 6,5 dəfə artıb. Təbii ki, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqəsinin, şəhid ailələrinin, əlillərin, qaçqın və məcburi köçkünlərin problemləri daim diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyevin ötən il keçirilən prezident seçkilərində qələbə qazandıqdan sonra imzaladığı ilk Fərmanın şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi prosesi haqqında olması deyilənlərin əyani sübutudur. Onu da vurğulamaq lazımdır ki, bütün şəhid vərəsələrinə birdəfəlik ödənişlərin verilməsi prosesi bu il ərzində başa çatdırılacaq. Bütün bunlar ölkə əhalisinin sosial vəziyyətlərinin yaxşılaşmasına və özlərini güvənli hiss etməsində daha geniş imkanlar yaradır.

### "Vətəndaşlarımız bir daha gördülər ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır"

İctimai rəydə, birmənalı olaraq, səslənən fikir ondan ibarətdir ki, Prezidentin sosial siyasəti, həqiqətən də, inqilabi xarakter daşıyır. Vətəndaşlarımız bir daha gördülər ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır. Hər hansı bir forsmajor situasiya yaranarsa, dövlət onların problemlərini həll etməyə qadirdir. Bunun üçün Azərbaycan Prezidentinin siyasi iradəsi var. Və 2019-cu ilin əvvəlindən sosial sahədə qəbul olunmuş qərarlar, xüsusilə də, problemli kreditlərin həlli öz miqyasına, əhatə dairəsinə görə, sözün əsl mənasında, inqilabi addımlardır.

Bizr sözlə, mövcud faktlar bir daha təsdiq edir ki, Prezident İlham Əliyev Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirləri davam etdirir. Əhalinin sosial təminatı sahəsində bütün lazımi tədbirlərin görülməsi isə, heç şübhəsiz, Azərbaycanda əhalinin həyat şəraitinin yüksəldilməsi istiqamətində müntəzəm addımların atılmasını bir daha sübut edir.

Çünki Prezident İlham Əliyevin 16 illik Prezidentlik fəaliyyətində həyata keçirdiyi sosial-iqtisadi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub. Ancaq daha bir fakt budur ki, tale hər bir xalqa bu cür mühüm xarizmalara sahib ola biləcək lider bəxş etmir. Nə xoşdur ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyev dühasının tarixi Liderliyini qəbul etməklə, yaşatmaqla bərabər, hazırda Onun layiqli davamçısı İlham Əliyev Liderliyi dövrünü yaşayır! Bununla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan strateji kurs daxili ictimai-siyasi sabitliyi və tərəqqini də ən yüksək səviyyədə təmin edib.

Prezident İlham Əliyev tarixi çıxışlarının birində vurğulayıb ki, Azərbaycan bu gün dünya üçün çox önəmli tərəfdaşa çevrilib: "Bu gün Azərbaycanın dünyada artan hörməti, eyni zamanda, bizim prinsipial mövqeyimizdən qaynaqlanır. Bizim tərəfdaşlarımız bilirlər ki, Azərbaycan etibarlı tərəfdaşdır. Bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur".

Bəli, bu, həqiqətən də, belədir! Bu gün Azərbaycan xalqı, ilk olaraq, öz Liderinə arxalanır, xalqımız isə, məhz öz sevimli Prezidenti ətrafında daha da sıx birləşərək, ölkənin inkişaf və tərəqqisində inamla irəliləyir. BU YOL İSƏ, ƏBƏDİ VƏ DÖNMƏZDİR!

**R.KAMALQIZI**

# Əli Həsənov: “Görünür, iki qonşu dövlət arasında dostluq kimlərisə narahat edir”

**_Görünür, iki qonşu dövlət arasındakı dostluq kimlərisə narahat edir və bu ölkələri, xalqları qarşı-qarşıya qoymağa çalışan qüvvələr var. Bunu “Keşikçi qala” sərhəd məntəqəsində baş vermiş məlum hadisə ilə bağlı Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov açıqlamasında bildirib._**



Ə.Həsənov deyib ki iyulun 14-də “Keşikçi qala” sərhəd məntəqəsində bir qrup Gürcüstan vətəndaşı tərəfindən Azərbaycanın sərhəd növbətçi dəstəsinə qarşı insident törədilib. Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində insident aradan qaldırılıb və ərazidə təhlükəsizlik təmin edilib:

“Qeyd etməliyik ki, ümumiyyətlə, son aylar ərzində Azərbaycan və Gürcüstan arasında strateji münasibətlərin ruhuna tamamilə zidd olan bu tipli təxribatların artan xətt üzrə inkişafı müəyyən suallar doğurmaya bilməz. Artıq hər iki tərəfin ekspertləri səviyyəsində müzakirələrdə belə fikirlər səslənir ki, görünür, iki qonşu dövlət arasında formalaşmış dostluq, strateji tərəfdaşlıq münasibətləri kimlərisə ciddi narahat edir və bu ölkələri, onların xalqlarını qarşı-qarşıya qoymağa çalışan qüvvələr var.

Müzakirələrdə bu qüvvələrin kimliyi barədə də müəyyən fikirlər səsləndirilir.

Şübhəsiz, Azərbaycan sərhədçilərinə qarşı törədilən son təxribat dövlətlər arasındakı münasibətlərə birbaşa zərbə vurmaq məqsədi daşıyır və ona görə də, hər iki ölkənin müvafiq qurumları ciddi araşdırmalar aparmalı, bu təxribatı törədən qüvvələri müəyyən edərək onlara qarşı ciddi ölçü götürülməliydilər. Artıq Gürcüstanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət olunub, ondan məsələ ilə bağlı müvafiq izahat istənilib. Gürcüstan Xarici İşlər Nazirliyi də hadisəni pisləyən açıqlama ilə çıxış edib və bu istiqamətdə ciddi araşdırmalar apararaq günahkarların məsuliyyətə cəlb ediləcəyinə söz verib.

Əlbəttə, biz əminik ki, Azərbaycan və gürcü xalqları bundan sonra da belə məqamlarda təmkinlə, müdrikcəsinə davranaraq, emosiyalara meydan verməyəcək, müvafiq rəsmi instansiyalar isə prinsipial şəkildə bu hadisələrin törədilməsində, iki dost ölkə arasında münasibətlərin gərginləşdirilməsində maraqlı olan qüvvələri, şəxsləri aşkarlayaraq cəzalandırılmasını təmin edəcəklər. Qaranlıq dairələrin dövlətlərarası münasibətlər müstəvisində söz sahibinə çevrilməsinə imkan verməmək olmaz və belə cəhdlərə birdəfəlik son qoyulmalıdır”.

Prezidentin köməkçisi əlavə edib ki, bununla yanaşı, təəssüflə qeyd edilməlidir ki, baş verən hadisələrdə böyük güclərin geosiyasi maraqları və onların daxili siyasi qüvvələrlə manipulyasiya cəhdləri özünü aydın büruzə verir. Həmçinin, istər Gürcüstanda, istərsə də Azərbaycanda əsasən xarici təsir altında olan bəzi maraqlı siyasi qruplar baş vermiş insidentdən yararlanmağa və hakimiyyət uğrunda mübarizədə belə həssas məqamlardan istifadə etməyə çalışırlar:

“Görünən odur ki, bəhs olunan qruplar mövcud vəziyyətdən bəhrələnmək istəyən üçüncü tərəflərin tarixi-dini stereotiplərlə manipulyasiyası üçün açıqdırlar və bəzən də bilərəkdən xarici təsir üçün könüllü alət rolunu oynayırlar. Biz əvvəllər də ölkəmizin strateji maraqlarına qarşı “beşinci kolon”un imkanlarından istifadə cəhdlərini ifşa etmişik və buna yol verməmək zərurəti haqqında danışanda, məhz belə halları nəzərdə tuturuq.

Qafqazda yeni münaqişə ocağı yaratmaq istəyənlərin diplomatik münasibətləri pozmaq, silaha sarılmaq kimi təxribatçı bəyanatları artıq xeyli vaxtdır ki, eşidilməkdədir. Məqsəd, əlbəttə ki, Cənubi Qafqazda yeni münaqişə ocağı alovlandırmaq yolu ilə öz ambisiyalarını Azərbaycan və Gürcüstana qəbul etdirməkdən ibarətdir. Bunun üçün, onlar bir tərəfdən Gürcüstanda daxili siyasi çəkişmələri qızışdırmağa, o bir tərəfdən Azərbaycanda daxili radikal qrupların bu ölkədəki proseslərlə bağlı təxribatçı çağırışlarını təşkil etməklə iki dost ölkə arasında mili-vətəndaş ehtiraslarını qızışdırmaq və bu fonda qarşıdurma yaratmağa can atırlar. Lakin onlara 2015-ci ildə Türkiyə ilə Rusiya arasında az qala qarşıdurmaya səbəb olmuş təyyarə insidentini xatırlatmaqla böyük diplomatik qalmaqaldan tərəflərin necə müdrikcəsinə çıxması nümunəsini xatırlatmaq istərdik. Həmin dövrdə də hər iki tərəfdə münasibətləri hərb meydanında ayırd etməyə çağırışlar olunurdu. Lakin Moskva və Ankara təxribata getmədilər, məsələnin kökünü araşdırdılar, günahkarlar tapıldı və ciddi fəsadlar vəd edən insident aradan qaldırıldı.

Buna görə də Azərbaycan və Gürcüstan vətəndaşları qızışdırıcı çağırışlara uymamalıdırlar. İndi emosional çağırışlar, impulsiv davranış deyil, təmkin və müdriklik nümayiş etdirməyin zamanıdır”.

Ə.Həsənov vurğulayıb ki, Azərbaycan sərhədlərinin demarkasiya və delimitasiyası ilə bağlı müzakirələr yalnız Gürcüstanla aparılmır:

“Tarixə nəzər salsaq, görərik ki, bu məsələdə insident yaşanan yeganə sərhəd xətti də son hadisənin baş verdiyi “Şəmkir” sərhəd dəstəsinin ərazisi olmayıb. Amma Azərbaycan ictimaiyyəti onu da çox gözəl bilir ki, mübahisələr, insidentlər zamanı bizim diplomatlarımız və sərhədçilərimiz bəzən ağır, yorucu görünən müzakirələrdə heç vaxt təmkinlərini itirməyiblər, milli maraqlarımızı əzmlə, peşəkarlıqla qoruyublar, Azərbaycanın haqlı mövqeyindən zərrə qədər də geri addım atmayıblar və bundan sonra da belə olacaqdır.

Müdrik gürcü və Azərbaycan xalqları arasında dostluq əlaqələrinin çox dərin tarixi kökləri var, indiyə qədər bu xalqları qarşı-qarşıya qoymaq, ədavətə sövq etmək kimsəyə müyəssər olmayıb. Münasibətlərimizin tarixi təcrübəsi göstərir ki, bizim talelərimiz də xeyli dərəcədə oxşar və bir-birinə bağlıdır. Bu tarixi təcrübə bizi qarşı duran tərəflər deyil, tərəfdaş olmağı, müstəqilliyimizi birlikdə qorumağı, sivil dünyaya birlikdə inteqrasiya etməyi öyrədir. Biz iqtisadi sahədə uğurlu əməkdaşlıq nümunəsini ortaya qoymaqla, hər iki ölkəyə böyük dividendlər gətirən mühüm enerji və nəqliyyat layihələrini reallaşdırmaqla fəal tərəfdaşlığın ən bariz nümunəsini bütün dünyaya nümayiş etdirmişik. Ölkələrimiz üçün taleyüklü məqamlarda dost dəstəyinin, bu dostluğa sadiqliyin hansı anlama gəldiyini əməli işimizlə göstərmişik. Əminik ki, bundan sonra da iki dost xalq arasında ədavət toxumları səpmək istəyənlərin cəhdləri heç bir nəticə verməyəcək. Radikal mövqe tutaraq xalqları, dövlətləri təxribata çəkmək, bir birinə qarşı qoymaq meyilləri müdriklik, əsrlərin sınağından çıxmış qarşılıqlı etimad mühiti qarşısında məğlub olacaq və regionumuzun yeni reallıqlarını unudaraq orta əsrlərin xiffətini çəkənlərin ekstremist təşəbbüsləri iflasa uğrayacaq”.



# Azərbaycanın Baş Naziri Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri ilə görüşüb

**_Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov iyulun 16-da Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Mohammad Al-Samaaninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb._**

AZƏRTAC xəbər verir ki, Azərbaycan-Səudiyyə Ərəbistanı münasibətlərindən danışan Baş Nazir Novruz Məmmədov ölkələrimiz arasında bir çox istiqamətlərdə, o cümlədən ədliyyə sahəsində yaxşı əlaqələrin olduğunu bildirərək deyib: “Ölkələrimiz və xalqlarımız arasındakı dostluq və tərəfdaşlıq münasibətləri həyata keçirilən yüksək səviyyəli qarşılıqlı səfərlər, aparılan danışıqlar sayəsində daha da möhkəmlənib. Əminəm ki, sizin səfəriniz də ölkələrimiz arasındakı əlaqələrin daha da genişlənməsinə öz müsbət töhfəsini verəcək”.

İki ölkə arasındakı siyasi əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən Novruz Məmmədov cari ilin iyununda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarının XIV Zirvə toplantısında iştirak etmək üçün Səudiyyə Ərəbistanına etdiyi səfəri məmnunluqla xatırladıb. Baş Nazir iqtisadiyyatın müxtəlif istiqamətlərində, o cümlədən turizm, kənd təsərrüfatı sahələrində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu diqqətə çatdırıb, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Baş Nazir Novruz Məmmədov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyinə verdiyi dəstəyə görə Səudiyyə Ərəbistanına minnətdarlığını ifadə edib.

Ədliyyə naziri Valid bin Mohammad Al-Samaani Səudiyyə Ərəbistanının bütün sahələrdə Azərbaycan ilə əməkdaşlığa önəm verdiyini diqqətə çatdırıb. Cari ilin əvvəlində iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalandığını xatırladan nazir Valid bin Mohammad Al-Samaani iyulun 15-də isə Əməkdaşlıq Proqramının imzalandığını söyləyib. Qonaq Azərbaycanın ədliyyə sahəsində tətbiq etdiyi informasiya resursları, o cümlədən “Elektron məhkəmə” informasiya sistemi ilə tanış olduqlarını bildirərək deyib: “Ölkələrimiz arasında məhkəmə-hüquq sistemi və qanunvericilik sahələrində əməkdaşlıq üçün yaxşı imkanlar var. Səfərimizin məqsədi də müxtəlif sahələrdə əlaqələrin genişlənməsinə töhfə verməkdir”.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

# Lerikdə “Sosial şəbəkələr: təhlükəsizlik qaydaları” mövzusunda təlim

**_Yeni Azərbaycan Partiyasının təşkil etdiyi “Gənc liderlər üçün yay məktəbləri” nin ikinci turu çərçivəsində təlim və tədbirlər iyulun 16-da da davam etdirilib._**

Günü birinci yarısında icebreaker təşkil olunub. Sonra “Sosial şəbəkələr: təhlükəsizlik qaydaları” mövzusunda təlim keçirilib. Çıxış edən YAP Gənclər Birliyi Ofisinin koordinatoru Elmar Məmmədov təlimin mövzusu və faydaları barədə məlumat verib.

Sonra təlimin moderatoru YAP Nərimanov rayon təşkilatının fəalı Fuad Babayev sosial şəbəkələrdən istifadə qaydaları və təhlükəsizlik məsələləri barədə ətraflı məlumat verib.

Sonda gənclərin sualları cavablandırılıb.





# Amina Mohammed: Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində Azərbaycanın atdığı addımlar təqdirəlayiqdir





***ABŞ-ın Nyu-York şəhərində səfərdə olan Azərbaycan Respublikasının Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT Baş katibinin birinci müavini xanım Amina Mohammedlə görüşüb.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Baş Nazirin qlobal problemlərin həllində iştiraka töhfə verməyə yüksək səy göstərən, habelə beynəlxalq tərəfdaşlığa əhəmiyyət verən ölkə olaraq Azərbaycanın qarşıdakı illərdə də bu cür əməkdaşlıq əlaqələrinin yaradılmasını və möhkəmləndirilməsini əsas prioritet kimi müəyyənləşdirdiyini bildirib. 1992-ci ildə BMT-yə üzv olduqdan sonra təşkilatın müxtəlif qurumları ilə səmərəli əməkdaşlığın davam etdiyini, bu əməkdaşlıq çərçivəsində bir sıra mühüm sənədlərin imzalandığını diqqətə çatdıran Baş Nazirin müavini ölkəmizin 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyə qoşulması ilə BMT ilə əməkdaşlıqda yeni səhifə açıldığını vurğulayıb. O, Azərbaycan Respublikasının Minilliyin İnkişaf Məqsədlərinə nail olunmasında qazandığı təcrübəyə istinad edərək Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunmasında da ön sıralarda olmağı planlaşdırdığını diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycanda Gündəliyə bir qlobal inkişaf proqramı kimi geniş maraq var və bütün tərəfdaşlar DİM-lərin ölkə üçün uyğunluğunu qəbul edirlər. Bütün dövlət qurumları DİM-lərin öz fəaliyyət istiqamətlərinə inteqrasiya olunmasına dəstək göstərməyə hazırdır. Bu baxımdan hökumət milli prioritetlərə uyğunlaşdırılmış DİM-lərə nail olunması üzrə əlaqələndirici qismində çıxış etməklə, bütün maraqlı tərəfdaşların Gündəliyin səmərəli icrasına yönəldilmiş təşəbbüslərinə əhatəli dəstəyi təmin edəcək. Eyni zamanda, yeni Azərbaycan 2030 strategiyasının hazırlanması və DİM-lərin bu strategiyaya inteqrasiyası nəzərdə tutulub.

Görüşdə Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğu və 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyü, bütün bunların ölkədə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında çətinliklər yaratdığı diqqətə çatdırılıb. BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi qətnamələrin indiyədək yerinə yetirilmədiyi vurğulanıb.

Xanım Amina Mohammed Azərbaycanda DİM-lərdən irəli gələn öhdəliklərlə bağlı vəzifələrin kompleks əlaqələndirilməsi və icrası üçün yüksək səviyyəli Milli Əlaqələndirmə qurumunun yaradılmasını, qısa müddət ərzində DİM-lərə inteqrasiya istiqamətində görülən işləri, habelə regionda və MDB məkanında ilk ölkə olaraq Azərbaycan tərəfindən ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda ikinci Könüllü Milli Hesabatın təqdim olunmasını yüksək qiymətləndirib. O, DİM-lərin ümumilikdə icrası istiqamətində ölkə tərəfindən atılan addımların təqdirəlayiq olduğunu söyləyib. Dayanıqlı inkişafa nail olunmasında sülh və sülhpərvər institutların yaradılmasının əhəmiyyətini vurğulayan Baş katibin müavini Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi üçün BMT-nin hər zaman Azərbaycana dəstək verməyə hazır olduğunu bildirib.

Baş Nazirin müavini Əli Əhmədov 2020-ci ildə keçirilməsi planlaşdırılan Dayanıqlı İnkişafa dair 2-ci Bakı Forumunda iştirak etmək üçün Baş katibin müavinini Bakıya səfərə dəvət edib. Dəvət xanım Amina Mohammed tərəfindən müsbət qarşılanaraq təsdiq edilib.







# Azərbaycan regionda və MDB məkanında ilk ölkə kimi ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna Könüllü Milli Hesabat təqdim edib




***İyulun 15-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Nyu Yorkdakı Baş Qərargahında təşkil olunmuş Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatı uğurla təqdim olunub və iştirakçı ölkələrin, BMT və digər beynəlxalq təşkilatların nümayəndələri tərəfindən müsbət qiymətləndirilib.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikası Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov hesabat barədə təqdimatla çıxış edərək, son dövrlərdə ölkəmizdə inklüziv və bərabər keyfiyyətli təhsilin təmin edilməsi, dayanıqlı iqtisadi artımın, tam və səmərəli məşğulluğun, layiqli işlə təmin olunmanın dəstəklənməsi, "heç kimin geridə qalmaması" prinsiplərinə əsaslanaraq əhalinin həssas təbəqəsinin sosial vəziyyətinin yaxşılaşdırılması, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə fəaliyyətin tənzimlənməsi və məhkəmə-hüquq sistemində aparılan islahatların dərinləşməsi barədə ətraflı məlumat verib. Eyni zamanda, nümayəndə heyətinin rəhbəri Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində əsas çətinliklərdən bəhs edərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında beynəlxalq ictimaiyyətin nümayəndələrini bir daha məlumatlandırıb, münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu, 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü, bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığını diqqətə çatdırıb. BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi 822, 853, 874 və 884 saylı məlum qətnamələrin indiyədək yerinə yetirilmədiyi bir daha Forum iştirakçılarının diqqətinə çatdırılıb.

Qeyd edək ki, BMT-nin müəyyən etdiyi "İnsanların hüquq və imkanlarının genişləndirilməsi və onların inklüzivliyinin və bərabərliyinin təmin edilməsi" tematik mövzusuna uyğun 4-cü "Keyfiyyətli təhsil", 8-ci "Layiqli əmək və iqtisadi artım", 10-cu "Bərabərsizliyin azaldılması", 13-cü "İqlim dəyişikliyinə qarşı mübarizə", 16-cı "Sülh, ədalət və səmərəli institutlar" və hər il nəzərdən keçirilən 17-ci "Məqsədlər üçün tərəfdaşlıq" məqsədləri üzrə təqdim olunan ikinci milli hesabat İqtisadiyyat Nazirliyi tərəfindən yerli ekspert və Dayanıqlı İnkişaf Məqsədləri üzrə yaradılmış işçi qruplarının iştirakı ilə aidiyyəti dövlət qurumlarının məlumatları nəzərə alınmaqla hazırlanıb.

Səfər çərçivəsində Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin rəhbəri Yaşar Əliyev, Ədliyyə nazirinin müavini Toğrul Musayev, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli, Nazirlər Kabinetinin şöbə müdiri Şahin Sadıqov, İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibi Hüseyn Hüseynovun təmsil olunduğu nümayəndə heyəti ilə BMT-nin bir sıra yüksək səviyyəli nümayəndələri və digər üzv dövlətlərinin nümayəndə heyətləri arasında ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulub.

Onu da qeyd edək ki, ölkəmiz BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuş, bu məqsədlərdən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

Hazırda Azərbaycan regionda və MDB məkanında ilk, ümumiyyətlə isə dünyada ikinci hesabatı təqdim edən 14 ölkədən biridir. Hesabatla BMT-nin rəsmi internet səhifəsindən (www.sustainabledevelopment.un.org) tanış olmaq olar.



# DSX Akademiyasında məzunların buraxılış mərasimi keçirilib










***2019-cu ildə yaradılmasının 12-si ildönümünü qeyd edən Dövlət Sərhəd Xidmətinin Akademiyası böyük inkişaf yolu keçərək qabaqcıl hərbi təhsil müəssisəsi səviyyəsinə yüksəlib. Bu müddət ərzində DSX-nin Akademiyasında Azərbaycan dövlətçiliyinə sədaqətli, peşəkar sərhədçi zabitlərin hazırlanması, hərbi qulluqçuların döyüş hazırlığının təkmilləşdirilməsi, dövlət sərhədinin mühafizəsi və hərb sahəsində elmi tədqiqatların aparılması üçün mükəmməl elmi-pedaqoji potensial və ən yüksək standartlara cavab verən maddi-texniki baza formalaşdırılıb.***

SİA-nın verdiyi məlumata görə, dünən Dövlət Sərhəd Xidməti Akademiyasının məzunlarının təntənəli buraxılış mərasimi keçirilib. Ənənəvi olaraq möhtəşəm Dövlət Bayrağı Meydanında təşkil olunmuş mərasimdə Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti, Bakı qarnizonu hərbi hissələrinin hərbi qulluqçuları, gənc zabitlərin valideynləri və ailə üzvləri iştirak ediblər.

Mərasimdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev gənc zabitləri təbrik edib, onlara xidmətdə uğurlar arzulayıb, tövsiyə və tapşırıqlarını verib, Azərbaycanın hər bir sərhədçisi kimi onların da dövlətçilik ənənələrinə daim sadiq olacaqlarına, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında dövlət sərhədlərinin etibarlı mühafizəsi naminə əzmlə xidmət edəcəklərinə, Azərbaycan sərhədçisi adını daima



uca tutacaqlarına inamını ifadə edib.

Azərbaycan Sərhəd Mühafizəsinə göstərilən qayğı sayəsində əldə olunmuş xidməti nailiyyətlər haqqında məlumat verilib, dövlət bayrağı-mızın qısa müddətdə işğaldan azad olunacaq şəhər və kəndlərimizdə dalğalanacağı, Heydər Əliyev dövlətçiliyinin əsgəri olan Azərbaycan sərhədçilərinin Ali Baş Komandanın bütün əmr və göstərişlərini ən yüksək səviyyədə icra etməyə hər an hazır olmaları bildirilib.

Akademiyanı bitirən leytenantlara diplomlar təqdim olunmuş, gənc zabitlər "Sərhədçi andı"nı qəbul ediblər. Tədbirin sonunda zabitlər və kursantlar təntənəli marşla tribunanın önündən keçiblər.

Tədbirdən sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev kursant valideynləri və ailə üzvləri ilə görüşüb, gənc sərhədçi zabitləri vətənpərvər ruhda tərbiyə etdiklərinə görə onlara minnətdarlığını bildirib, DSX rəisinin sabiq şəxsi heyət üzrə müavini mərhum general-mayor Məhəmməd Abbasquliyevin oğlu leytenant Əli Abbasquliyev ilə görüşərək DSX Akademiyasının məzunu olması münasibətilə onu təbrik edib, sərhədçi zabit nəslinin nümayəndəsi və atasının layiqli davamçısı kimi gələcək xidmətində ona uğur və müvəffəqiyyətlər arzulayıb.

Mərasimdən sonra gənc zabitlər Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət ediblər.

# YAP ölkə gəncləri arasındakı ünsiyyəti möhkəmləndirən yeganə siyasi təşkilatdır

## *"Yay məktəbləri" layihəsi çərçivəsində Azərbaycan gəncliyi özünü bir daha sübut etmək, malik olduğu keyfiyyətləri üzə çıxarmaq şansı əldə edir*



***Azərbaycanın avanqard siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının (YAP) uğurlu fəaliyyəti ilə ictimaiyyətin güclü dəstəyini qazanması hər kəsə bəllidir. SİA-nın verdiyi məlumata görə, partiyanın həyata keçirdiyi bir sıra layihələr isə bu dəstəyi daha da gücləndirir.***

Onu da vurğulamaq yerinə düşər ki, YAP-ın bir çox sahələri özündə ehtiva edən müxtəlif səpkili layihələrində cəmiyyətin bütün təbəqələri əhatə olunub. Ölkəmizin həyatında mühüm və əlamətdar günlərdə, xüsusi bayramlarda YAP tərəfindən həmişə diqqət və qayğıya ehtiyacı olan ailələrə, insanlara yardımlar edilir, köməkliklər göstərilir. Cəmiyyət üzvləri də Yeni Azərbaycan Partiyası tərəfindən atılan bu addımları həmişə yüksək qiymətləndirir, bu cür aksiyalarda böyük fəallıq nümayiş etdirirlər. Bütün bunlardan əlavə ölkə gəncliyi, həmçinin, onlara göstərilən diqqət və qayğı da YAP-ın fəaliyyətində əsas yerlərdən birini tutur. Təsadüfi deyil ki, məhz YAP tərəfindən bir neçə ildir böyük uğurla davam etdirilən və ölkəmizin bütün bölgələrindən olan gəncləri əhatə edən "Yay məktəbləri" layihəsi artıq ənənəyə çevrilib.

Hər il təşkil olunan layihə bu mövsüm baş tutub. Belə ki, 2007-ci ildən həyata keçirilən "Yay məktəbləri" çərçivəsində bu il də gənclər üçün Lerik rayonundakı "Relax" istirahət mərkəzində və Oğuz rayonundakı "Afra" hoteldə hər qrupda 70 nəfər olmaq üzrə 5 günlük "Yay məktəbləri" təşkil olunub.

Layihənin məqsədi gənclərin həm asudə vaxtlarını yaxşı keçirmələri, bir-birilə təmas, münasibət qurmaları, həm də, onlar üçün intellektual və əyləncəli yarışların, idman oyunlarının təşkili olub. "Yay məktəbləri"ndə YAP-ı təmsil edən deputatlar, eləcə də, hökumət nümayəndələri gənclərin qonağı olublar. Onlar müxtəlif mövzular ətrafında fikirlərini bölüşüb, gəncləri maraqlandıran suallara cavab veriblər. Təbii ki, bütün bunlar gənclərdə böyük marağa və yaddaqalan xatirələrə çevrilib. Bunu həmin layihə iştirakçısı olmuş gənclər də etiraf edirlər.

**Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının məsləhətçisi Güldanə Orucova** bildirib ki, bu cür layihələr partiyanın Bakı şəhərindəki təşkilatlarındakı gənclərlə bölgədəki rayon təşkilatlarının gəncləri arasındakı ünsiyyəti formalaşdırır, əlaqələri yaradır, yeni fikir və ideyaların meydana çıxmasına şərait yaradır: "YAP-ın təşkil etdiyi "Yay məktəbləri" layihələri bu baxımdan gənclər üçün böyük imkanlar yaradır".



**YAP Tərtər rayon təşkilatı Gənclər Birliyinin sədri Tunarə Məmmədzadə** deyib ki, biz gənclər nəzəri baxımından təhsil aldığımız müddətdə əldə etdiyimiz bilikləri, təcrübələri həmin düşərgələrdə keçirilən diskussiyalarda paylaşmaq imkanı əldə etmiş oluruq. Bu zaman həm biz öz potensialımızı reallaşdırırıq, özümüzü sübut edirik, malik olduğumuz natiqlik, fikir yürütmə keyfiyyətlərimizi üzə çıxarırıq, həm də bildiklərimizin mübadiləsini aparırıq.



**YAP Sumqayıt şəhər təşkilatı Gənclər Birliyinin sədri Elvin Məmmədzadə** isə vurğulayıb ki, Yeni Azərbaycan Partiyası Azərbaycan gəncliyinə özünü sübut etmək, daxili istedadını üzə çıxarmaq üçün perspektivli fəaliyyət platforması yaradır. Biz gənc nəsil çox xoşbəxtik ki, Azərbaycanın çiçəklənən dövrünün vətəndaşlarıyıq, eyni zamanda, ölkəmizin avanqard siyasi qüvvəsinin üzvləriyik.



**YAP Binəqədi rayon təşkilatının baş məsləhətçisi Kubra Əliyarlı da** əqidə yoldaşının fikirlərini bölüşərək dedi ki, Yeni Azərbaycan Partiyasının təşkil etdiyi "Yay məktəbləri" layihəsi, eyni zamanda, gənclərə ümummilli lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, milli dövlətçiliyimizin tarixi, onun möhkəmləndirilməsi, həmçinin, ölkədə reallaşdırılan siyasi-iqtisadi kurs haqqında biliklərin əldə olunması istiqamətində əlverişli şans verir: "Millət vəkillərinin, Azərbaycan ziyalılarının iştirakı ilə keçirilən diskussiyalarda praktik biliklər əldə edə bildik. Diskussiyalarda bir daha bugünkü zəngin və müstəqil Azərbaycanın necə ağır dönəmlərdən keçərək, inkişafın yeni mərhələsinə yüksəldiyini əyani şəkildə təsəvvür edirdik".



"Qeyd edim ki, müstəqil Azərbaycanın bu cür sürətli və stabil inkşafı heç də hər kəsdə sevinc hissi doğurmur. Elə xaricdə olduğu kimi, daxilimizdə də Vətənimizin uğurlarına sevinməyənlər var. Onlar bütün vasitələrdən istifadə edərək, Azərbaycana qarşı təbliğat aparır, dövlətimizin nailiyyətlərinə kölgə salmağa çalışırlar. Bunları isə internet, sosial şəbəkələr üzərindən həyata keçirirlər" - deyən partiyası fəalı **YAP Biləsuvar rayon təşkilatı Gənclər Birliyinin sədri Aqşin Bağırov** əlavə edib ki, biz gənclərin "Yay məkəbləri" layihəsi çərçivəsində əsas müzakirə mövzularımızdan biri bu oldu: "Məhz, sosial şəbəkələrlə bağlı diskussiyalarda bütün gənclərin fikirləri üst-üstə düşdü. Birincisi, bu sahədə daha səmərəli işləmək üçün respublika gənclərinin yekdil qərarı oldu, ikincisi, daxildəki "sapı özümüzdən olan baltaların" əməlləri pislənildi".



**"Yay məktəbi" iştirakçısı YAP Ağstafa rayon təşkilatı Gənclər Birliyinin sədri Elvin İmaməliyev** qeyd edib ki, bu layihə biz gənclərə bir daha canlı ünsiyyət qurmağa, fikir mübadiləsi aparmağa, vahid məqsəd ətrafında daha sıx birləşməyə, bəzi hallarda anti-Azərbaycan qüvvələrinin şirnikləşdirici vədlərinə aldanaraq səhv istiqamət götürən gənclərin düz yola gətirilməsi üçün çağırışlar etməyimizə şans verdi.



**YAP Şəmkir rayon təşkilatı Gənclər Birliyinin sədri Emin İsmayılov** vurğulayıb ki, partiyanın "Yay məktəbləri" ilk növbədə gənclərin mənalı istirahətini təşkil etməklə yanaşı, onlarda müstəqil fikir yürütmə, söylənilən fikrə qarşı tezislə çıxışetmə, maraqlı və intellektual diskussiya aparma və s. kimi keyfiyyətləri formalaşdırır.



"Bütövlükdə layihənin proqramına nəzər saldıqda görürük ki, məktəbin iştirakçıları daim fiziki işlə, zehni, intellektual atmosferlə əhatələnir" - deyən YAP Saatlı rayon təşkilatının məsləhətçisi Aqşin Əliyev respublikamızın tarixi, görməli yerlərilə tanışlıq, intellektual və digər profilli oyunlar, maraqlı söhbətlər və diskussiyalar insanın həm dünyagörüşünü zənginləşdirir, həm də hazırcavab insan kimi yetişdirir. Bu unikal bir layihədir ki, gəncliyimiz "Yay məktəbləri"ndən hələ çox fayda götürəcək.

Sonda gənclər bir daha YAP rəhbərliyinə bu cür layihə təşkil etdiyinə görə minnətdarlığını, daim Azərbaycan gəncliyinə dəstək olan, onların inkişafı üçün bütün lazımi şəraiti yaradan Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

# Güclü və azad medianın inkişafına xor baxanlar...

*Yaxud, KİVDF-nin ləğvini "arzulayan" Mehman Əliyev kimilər Soros fondundan aldığı yüzminlərlə dolları mənimsəməsindən danışsın*

**Bu gün Azərbaycan Respublikası regionun ən inkişaf edən ölkəsi kimi bir çox dünya ölkələri üçün nümunə olaraq göstərilməkdədir. Ölkəmizin nümunəliyi və model olaraq təqdim edilməsi sosial-iqtisadi, hərbi-humanitar aspektlə yanaşı respublikamızın siyasi-hüquqi inkişafı, reallaşdırılan islahatlar baxımından da xüsusi diqqətçəkəndir. Son 15 il ərzində ölkə iqtisadiyyatının 3 dəfədən çox artması, insanların sosial rifah halının yüksəlməsi, ölkəmizin kosmik kluba daxil olması, bütün ciddi hesabatlarda, beynəxalq təşkilatların məruzələrində öncül yerlərdə qərarlaşması bir daha Azərbaycanın inkişafı ilə qlobal müsbət imicin formalaşmasına əsas yaradıb.**

Əlbəttə ki, son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilib və mühüm nailiyyətlər əldə edilib. Xüsusilə də nəzərə almaq lazımdır ki, ölkədə vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının müstəqilliyinin və maliyyə imkanlarının artırılmasına mühüm əhəmiyyət verilir və bu mənada Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə 2007-ci ildə "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası" təsdiq edilib, bu sahədə ixtisaslaşmış qurum kimi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradılıb. 2008-ci ildə fəaliyyətə başlayan Şura ictimai təşəbbüsləri dəstəkləyərək QHT-lərin minlərlə layihəsini maliyyələşdirib. Göründüyü kimi, ölkəmizdə vətəndaş cəmiyyəti institutlarının səmərəli fəaliyyəti üçün əlverişli şərait yaradılıb. Məhz, bütün bunların nəticəsidir ki, bu gün Azərbaycanda 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı, habelə sıralarında 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları sərbəst fəaliyyət göstərir.

Azərbaycanda demokratik ictimai-siyasi təsisatlarla yanaşı, medianın inkişafı da dövlətin diqqət mərkəzindədir. Təsadüfi deyildir ki, bu istiqamətdə ardıcıl olaraq islahat xarakterli səmərəli tədbirlər həyata keçirilir və ölkəmizdə KİV-in inkişafı üçün müvafiq qanun və qərarların qəbul olunması, strateji xarakterli addımların atılması bu sahədə hüquqi əsasları daha da gücləndirib, media təsisatının funksionallığının artmasına səbəb olub. Atılan addımların nəticəsidir ki, Hazırda ölkədə 5 mindən çox kütləvi informasiya vasitəsi, "az" domenində qeydiyyata alınmış internet saytlarının sayı isə 25-30 mini ötüb. 10 milyona yaxın əhalinin 80 faizi internet, 3 milyona qədəri isə sosial şəbəkə istifadəçisidir.



Bəhruz Quliyev,
"Səs" qəzetinin baş redaktoru,
KİVDF Müşahidə Şurasının üzvü

Bütün bunlarla yanaşı maddi-texniki baxımdan güclənən hər bir media orqanı qanunlar çərçivəsində sərbəst fəaliyyət göstərir. Elə qəbul edilmiş "Kütləvi informasiya vasitələri haqqında", "Məlumat azadlığı haqqında" və başqa qanunlarla ölkədə media qurumlarının qanunlara müvafiq surətdə sərbəst şəkildə yaradılması və fəaliyyəti təsbit və təmin edilib. Eyni zamanda, Prezident İlham Əliyev ötən dövr ərzində KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çoxsaylı qərarlar qəbul edib. Məhz, medianın inkişafına xidmət edən əhəmiyyətli addımlardan biri də Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılmasıdır.

Əsas məqsədi Azərbaycanda fikir, söz və məlumat azadlığını inkişaf etdirmək, kütləvi informasiya vasitələrinin müstəqilliyini dəstəkləmək, informasiya sektorunda yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqini stimullaşdırmaq, cəmiyyət və kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığı genişləndirmək, jurnalistlərin peşəkarlığı və məsuliyyətinin artmasına şərait yaratmaq, sosial müdafiəsini gücləndirmək, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən, habelə kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşməsini nəzərdə tutan və inkişafını dəstəkləyən proqramları, layihələri və digər tədbirləri maliyyələşdirmək olan KİVDF son 10 il ərzində jurnalistlərin peşəkarlığının artırılması, sosial-mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində gördüyü işləri xüsusi qeyd etmək olar.

Lakin çox təəssüflər olsun ki, hər bir sahədə olduğu kimi media sektorundakı nailiyyətlərə və uğurlara kölgə salmaq istəyən anti-milli ünsürlər bu dəfə KİVDF-nin üzərinə hücumlar edir, siyasi sifariş əsasında azad və müstəqil medianın dəstəkçisi olan qurumun fəaliyyətini ləkələməyə çalışırlar. Amma o da heyrətləndiricidir ki, bu işdə öndə gedənlər özləri çirkli məqsədlər üçün ayrılmış qrantların mənimsənilməsi üzrə ixtisaslaşmış "qarayaxma maşınları"dır. Elə onlardan biri də bütün fəaliyyətini yalnız qrant mənimsəmək fəlsəfəsi üzərində quran, xüsusilə də, Azərbaycanda media sektorunun inkişafından narahatlıq keçirən təşkilatların, yaxud qüvvələrin sifarişlərini yerinə yetirən Mehman Əliyevdir. Bu həmin Mehman Əliyevdir ki, şəxsi maddi maraqlarına görə Azərbaycanda demokratikləşmə prosesinin, xüsusilə də media sektorunda həyata keçirilən məqsədyönlü işlərin səmərəli nəticələrini ləkələmək üçün yüzminlərlə dollar qrant almış, hətta Soros fomdunun 1 milyon dollar maliyyəsini mənimsəməkdə ad çıxarmış dələduz kimi tanınır. O, reallıqlara uyğun olmayan fikirlər səsləndirir, əldə edilmiş nailiyyətlərin üzərinə kölgə salmaq istəyir, hətta irəli gedərək KİVDF-nin buraxılmasını "arzulayır".

Axı, hər kəsə bəllidir ki, son 10 il ərzində KİVDF Azərbaycanda medianın inkişafına çox güclü təsir göstərib. Hətta, media ekspertləri də vurğulayırlar ki, məhz KİVDF xəttilə mətbuatın inkişafına mühüm töhfələr verilib, medianın fəaliyyətində əsaslı dəyişikliklər meydana gəlib. Məhz, bu kontekstdən çıxış edərək demək olar ki, Mehman Əliyev kimilər yaxşı olar müxtəlif təşkilatlardan, xüsusilə də gizli məqsədlərin reallaşdırılması üçün Sorosdan aldığı qrantların hesabatını versin. Bu gün bu sahə ilə maraqlanan bir çox insan bilir ki, Mehman Əliyev Azərbaycanda Soros fondundan 1 milyon dollardan artıq qrant şəklində verilən pul almış 4 nəfərdən biridir.

Ümumiyyətlə, Mehman Əliyevin KİVDF-yə hücumu heç də təsadüfi xarakter daşımır. Çünki, Mehman Əliyev "Soros" fondunun Azərbaycan bölümünün idarə heyətinin rəhbəri təyin olunduqdan sonra ilk hücum etdiyi təsisatlardan biri Mətbuat Şurası olmuşdu. Əlbəttə, o zaman layiqli cavabını almış Mehman Əliyev bir müddət qınına çəkilsə də, görünür 10 illiyi qeyd olunan KİVDF-yə hücum sifarişi alıb. Amma indidən deyə bilərəm ki, Mehman Əliyevin bu xain hücumu da nəticəsiz qalacaq. Çünki, cəmiyyət qarşısında gözü kölgəli olan Mehman Əliyev hələ də ictimaiyyəti maraqlandıran suallara cavab verməkdən boyun qaçırır. Məsələn, vaxtilə şəhərin mərkəzindəki böyük ofisin, "Turan" agentliyində çalışan onlarla jurnalist və texniki heyətinin, özünün gündəlik lüks həyatının xərcini hansı mənbədən ödəyirdi? Əslində, heç söyləməsə də olar. Çünki hər kəs bu pulların mənbəyini yaxşı bilir və bu səbəbdən də Mehman Əliyev ölkəmizdə media azadlığından, mətbuatın inkişafından danışacaq ən sonuncu adamlardan biridir.

# KİVDF və "Azərenerji" qalibləri mükafatlandırdı

**Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVDF) və "Azərenerji" ASC-nin birgə təşkil etdikləri "Azərenerji" ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar.**




SİA-nın məlumatına görə, dbirdə Fondun icraçı direktoru Vüqar Səfərli, "Azərenerji" ASC prezidentinin ümumi işlər üzrə müşaviri Vüqar Əliyev, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak ediblər. Tədbirin əvvəlində "Azernerji" ASC-nin "Reabilitasiya proqramı" çərçivəsində görülmüş işlərdən bəhs edən qısa videoçarx nümayiş olunub.

Qonaqları salamlayan "Azərenerji" ASC prezidentinin ümumi işlər üzrə müşaviri Vüqar Əliyev bildirib ki, ötən ilin payızından başlayaraq "Azərenerji" ASC tərəfindən "Reabilitasiya Proqramı"na start verilib və Mingəçevirdə yerləşən "Azərbaycan" İstilik Elektrik Stansiyası da daxil olmaqla ölkədəki 12 elektrik stansiyasında, sistem əhəmiyyətli 17 yarımstansiyada 100-dən artıq təyinat üzrə yenidənqurma, təmir və bərpa işləri aparılır: "35 elektrik stansiyası və 150 yarımstansiyanı əhatə edəcək SCADA Dispetçer İdarəetmə Sistemi yenidən qurulur, Azərbaycan enerji sistemində qəza rejimlərinin məhdudlaşdırılması və tam ləğvini mümkün etmək üçün mikroprosessor texnikasının tətbiqi, həmçinin modernləşdirilməsi ilə yeni əks qəza avtomatika kompleksləri yerinə yetirilir".

Vüqar Əliyev həmçinin bildirib ki, 2018-2021-ci illəri əhatə edən "Reabilitasiya proqramı"nın həyata keçirilməsində əsas məqsəd itirilmiş gücləri bərpa etmək, enerjisistemin etibarlığını və dayanaqlığını təmin edərək inkişafa nail olmaqdır: "Reablitasiya proqramı çərçivəsində 800 MVt-dan artıq "itirilmiş" gücün bərpası planlaşdırılıb".

"Azərenerji ASC" prezidentinin müşaviri görülən işlərin ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırılmasında jurnalistlərin rolunu da xüsusi vurğulayıb. O, təşkil olunmuş müsabiqənin əhəmiyyətini yüksək qiymətləndirdiyini bildirərək yekun nəticələr barədə danışmaq üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib.

Tədbir iştirakçılarını salamlayan Vüqar Səfərli media nümayəndələrini Milli Mətbuatın yaranmasının 144-cü ildönümü münasibətilə təbrik edib, onlara yaradıcılıq uğurları arzulayıb. Vüqar Səfərli mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə əməkdaşlığın genişləndirilməsi məqsədinə xidmət edən tədbirlərin, eləcə də birgə fərdi yazı müsabiqələrinin təşkilinin Fondun fəaliyyətində prioritet istiqamətlərdən biri olduğunu qeyd edib.

Azərbaycanın davamlı və sabit inkişafında energetika sisteminin rolunu xüsusi qeyd edən Vüqar Səfərli bir ilə yaxın müddətdə bu sahədə mühüm islahatların aparıldığını, enerjisistemin etibarlığının xeyli dərəcədə yüksəldiyini bildirib. İcraçı direktor əlavə edib ki, "Azərenerji" ASC ilə birgə keçirilən müsabiqənin əsas məqsədi Azərbaycan Respublikasının enerji təhlükəsizliyinin davamlı olaraq təmin edilməsi, bu sahədə yeni texnologiyaların tətbiqi ilə əlaqədar reallaşdırılan tədbirlərin ictimaiyyətə obyektiv şəkildə çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

Çıxışını davam etdirən Vüqar Səfərli bildirib ki, 2019-cu il mayın 10-dan iyulun 5-dək davam edən birgə fərdi jurnalist yazıları müsabiqəsinə 25 KİV-dən 35 yazı təqdim edilib, yazılar üç nəfər ekspert tərəfindən qiymətləndirilib. İcraçı direktor yekun nəticələrə əsasən, yazı müəlliflərindən 6 nəfərinin əsas, 10 nəfərinin həvəsləndirici mükafatlara layiq görüldüyünü diqqətə çatdırıb.

Sonra qaliblərə fəxri diplom və pul mükafatları təqdim olunub. Tədbiri yekunlaşdıran "Azərenerji" ASC prezidentinin ümumi işlər üzrə müşaviri Vüqar Əliyev media nümayəndələrini Milli Mətbuat Günü münasibətilə təbrik edib, habelə Fondla bundan sonra da müştərək layihələrin həyata keçiriləcəyini vurğulayıb.

# Azərbaycan-Türkiyə: “Bir millət, iki dövlət” prinsiplərinə sədaqət

***Azərbaycan və Türkiyə arasında qədim tarixi olaylara, həmçinin mədəni və etnik bağlara əsaslanan xüsusi münasibətlər mövcuddur. Azərbaycanlılar və türklər eyni türk mənşəlidirlər və ortaq əcdadları var. Oğuz türkləri tərəfindən təşkil olunmuş Səlcuq imperiyası bugünkü Türkiyə və Azərbaycanın bünövrəsi hesab olunur. Hər iki ölkə coğrafi cəhətdən yaxındır və Azərbaycan Türkiyə ilə Naxçıvan regionunda kiçik bir sərhədi paylaşan yeganə türkdilli dövlətdir. Bütün bunlar müasir günümüzün Azərbaycanı və Türkiyəsi arasında xüsusi əlaqələrin qurulmasına öz töhfəsini vermişdir.***




Bu iki ölkə arasındakı əlaqələri daha yaxşı anlamaq üçün biz Osmanlı imperiyasının Birinci Dünya müharibəsi dövründəki tarixinə nəzər salmalıyıq. Həmin dövrdə Osmanlı ordusu çox çətin durumda idi və imperiya özü isə tənəzzülə gedirdi. Müharibənin ilk illərində bütün bu çətinliklərə baxmayaraq, Çanaqqala (Gelibolu) savaşında Osmanlının zəfəri çox mühüm, lakin olduqca çətin qələbə idi. Çanaqqala savaşı Birinci Dünya müharibəsi zamanı Antanta İttifaqına daxil olan dövlətlərin Avropadan Rusiyaya olan dəniz yolunu öz nəzarəti altına keçirtmək üçün bir cəhd idi. Həmin kampaniya ilk olaraq Britaniya və Fransa gəmiləri tərəfindən Dardanel boğazında 1915-ci ilin fevralında dəniz hücumu ilə başladı və aprelin 25-də Britaniya və Fransa qoşunları, Avstraliya və Yeni Zelandiya ordu korpusları tərəfindən Gelibolu yarımadasının zəbti ilə davam etdi. Boğazların işğalı İttifaq dövlətlərinə Rusiya ilə Qara dənizdə birləşməyə imkan verəcək və onlar birgə fəaliyyət göstərərək Türkiyəni sıradan çıxara biləcəkdi. Lakin doqquz ay Osmanlı dövlətinin əsgərləri öz vətənlərini çoxsaylı xarici qüvvələrin işğaldan müdafiə etmək üçün mərdliklə savaşdılar. Osmanlı əsgərləri Mustafa Kamal Atatürkün başçılığı ilə ölüm-dirim savaşına hazır idilər. Onlar vətənlərinin müdafiəsini özləri üçün müqəddəs bir vəzifə bilirdilər. Çanaqqala savaşında hər iki tərəfdən böyük itkilər oldu. Osmanlı ordusu qətiyyətlə savaşaraq qələbə çaldı. Osmanlı ordusunun Qafqaz kampaniyasında türklərə qoşulan azərbaycanlılar da müttəfiqlərə qarşı Çanaqqala savaşında əzmlə mübarizə apardılar. 4 minə yaxın azərbaycanlı osmanlı türkləri ilə çiyin-çiyinə xarici işğala qarşı mübarizə apararaq canlarından keçdilər. Bu, möhtəşəm bir qardaşlıq nümunəsi idi.

İki ölkə arasındakı bu xüsusi münasibətlərin daha bir gözəl nümunəsi 1918-ci ildə Azərbaycanda milli azadlıq hərəkatı dövrünə təsadüf edir. Azərbaycandakı vəziyyət hadisələri sürətlə gərginliyə doğru aparırdı. Belə ki, bolşeviklər və Erməni İnqilab Federasiyasının (Daşnaklar) birləşmiş qüvvələri Bakıdakı hakimiyyəti ələ keçirmişdi. Bu hərəkatın mühüm dönüş nöqtəsi isə indi Mart günləri kimi tanınan, erməni daşnakları və bolşevik qoşunları tərəfindən 30 mart və 3 aprel 1918-ci il tarixlərində 12 min azərbaycanlının Bakıda qətl edilməsi idi. Bunun ardınca 1918-ci ilin aprelində Bakı Xalq Komissarları Soveti yaradıldı və özünü Sovet Rusiyasının ayrılmaz hissəsi olduğunu bəyan etdi. Azərbaycan Demokratik Respublikasının qurucuları, müstəqillik hərəkatına rəhbərlik edənlər 1918-ci ilin mayın 28-də Tiflisdə müstəqillik elan etdilər. ADR hökuməti 1918-ci ilin iyunun ortalarında Tiflisdən Gəncəyə köçəndə əsas hədəf Bakını işğaldan azad etmək idi. Gənc respublikanın hələ müntəzəm nizami ordusu olmadığına görə Azərbaycan Osmanlı dövlətindən yardım istədi. 4 iyun 1918-ci il tarixində Azərbaycan və Osmanlı dövləti Batumda dostluq və əməkdaşlıq anlaşması imzaladılar. Həmin anlaşmanın 4-cü bəndinə əsasən Osmanlı dövləti Azərbaycana onun təhlükəsizliyini qoruyub sülhü bərpa etmək üçün hərbi yadım göstərməli idi. Batum anlaşması Azərbaycan Demokratik Respublikasının xarici dövlətlə bağladığı ilk razılaşma oldu. Həmin anlaşmaya əsasən Türk qüvvələri Nuri paşanın komandanlığı altında 14 sentyabrda şəhərə daxil olaraq Bakı uğrunda savaşa başladılar və növbəti gün qələbə qazandılar. Yeni Qafqaz İslam Ordusu Osmanlı hərbi qüvvələri, azərbaycanlı əsgərlər və Dağıstandan gələn könüllülərdən ibarət idi. Bunun nəticəsi olaraq Azərbaycan Demokratik Respublikası öz paytaxtını Bakıya köçürdü.

Daşnak hərbi qüvvələrinin Birinci Dünya müharibəsi illərində (1914-1918) Osmanlı ərazilərində “böyük Ermənistan” yaratmaq planları iflasa uğradıqdan sonra Cənubi Qafqaza geriləməli oldular və İrəvan da daxil olmaqla Azərbaycanın əyalətlərində qətliamlar törətməyə başladılar. 1918-ci ilin əvvəllərində Daşnakların İrəvanda azərbaycanlılara qarşı apardığı etnik təmizləmə zamanı orada yaşayan nənəmin ailəsi böyük faciələrlə qarşılaşdı. Nənəmin atası, mənim ulu babam axund Hacı Əliqulu cəmiyyətdə tanınan, o dövrün mütərəqqi ictimai xadimlərindən idi. O, İrəvan əhalisini erməni qırğınlarından xilas etmək üçün onların şəhərdən çıxmasına rəhbərlik edənlərdən biri olmuş, lakin özü bu missiyanı həyata keçirən zaman Araz çayının keçidində arxadan güllələnmişdi. Nənəmin böyük qardaşı, o dövrün mütərəqqi Rus-Tatar məktəbinin tələbəsi bizim ailənin bu hadisələr zamani növbəti qurbanı oldu. Nənəm isə canını ölümdən güclə qurtara bildi. Ulu nənə-babamın və onların ailəsinin hekayə və xatirələri hələ də ailəmizdə nəsildən-nəslə ötürülərək yaşadılır. 1918-1920-ci illərdə Azərbaycanın tarixən doğma torpaqları olan İrəvan əyalətində 132 mindən çox azərbaycanlı qətlə yetirilmişdi. Xilas ola bilənlər isə İranda, Türkiyədə və Azərbaycanın digər bölgələrində qaçqın kimi yaşamağa məcbur olmuşdu.

Erməni qoşunları 1918-ci il boyunca nəinki Azərbaycan Demokratik Respublikasında, Cənubi Azərbaycanda da yerli əhaliyə hücumları davam etdi. Cənubi Azərbaycanın Urmiya, Xoy, Təbriz, Səlmas və digər əyalətləri erməni hərbi qüvvələrinin törətdiyi dəhşətli cinayətlərə məruz qaldı-

# Azərbaycan-Türkiyə: "Bir millət, iki dövlət" prinsiplərinə sədaqət

lar. Bu hadisələr bir çox tarixi mənbələrdə sənədləşdirilmişdir. Həmin faciəli günlərdə Osmanlı dövləti minlərlə günahsız insanı xilas etmək üçün yardım əlini uzadaraq öz qoşun hissələrini göndərmişdi.

İşğala məruz qalan ərazilərə yaxından bələd olan yerli hərbi dəstələr Osmanlının xilaskar ordusuna qoşulurdu. Onlardan biri də babamın əmisi oğlu Yaqub Əli oğlu Namazov idi. Ətrafdakılar onu Yaqub ağa kimi tanıyırdılar. O, İrəvanın Uluxanlı qəsəbəsində silahlı dəstəyə başçılıq edirdi. Türk hərbi komandanlığı onu Osmanlının xüsusi təyinatlı qoşun hissəsində yüzbaşı təyin etmişdi. Bu hərbi hissə Yaqub ağanın silahlı dəstəsi ilə birlikdə İrəvanda və Cənubi Azərbaycanda xilasetmə əməliyyatları həyata keçirmişdi. Daşnaklar 1918-ci ilin martında Xoy şəhərinə daxil olan zaman yerli əhali onlara köməyə gələn Osmanlı qoşunları ilə birləşib düşməni geri çəkilməyə məcbur edə bilmişdi. Ailəmiz Yaqub ağanın xilasetmə missiyasında iştirakını əziz xatirə kimi bu gün də yaddaşında saxlayır.

Azərbaycanın Osmanlı dövləti ilə əlaqələri bolşeviklərin 1920-ci ilin aprelində Bakının işğalından sonra da davam etmişdi. Həmin zaman Azərbaycan Sovet Respublikasının əsası qoyuldu və 1922-ci ilin sonunda SSRİ-yə tamamilə birləşənə qədər Türkiyə ilə sıx münasibətlər davam etmişdi. Bu münasibətlər Mustafa Kamal Atatürkün milli azadlıq hərəkatına dəstək üçün əlverişli şərait yaratmışdı. Azərbaycandakı milli müstəqillik hərəkatında fəal olan bir çox azərbaycanlı mütəfəkkir yeni türk respublikasının qurulmasına kömək etmək üçün Türkiyəyə köçmüşdü. Müasir Türkiyə Respublikasının formalaşması üçün maddi yardım çox mühüm idi və bu yardım Türkiyənin Ərzurum şəhəri ilə Sovet Azərbaycanının Bakı şəhərini birləşdirən dəmiryol xətti ilə çatdırılırdı.

1991-ci ildə SSRİ-nin süqutundan və Varşava paktının qüvvədən düşməsindən sonra Türkiyə regionun super gücünə çevrildi və yeni müstəqillik qazanmış dövlətlərlə qərb dünyası arasında körpü rolunu oynamağa başladı. Türkiyə dəyərli müttəfiqlik və güclü liderlik nümayiş etdirir və regionda NATO-nun mühüm üzvlərindən biri kimi yaradıcı diplomatiya ilə seçilirdi. Türkiyənin beynəlxalq müstəvidə artan nüfuzu bu ölkəni regionun etibarlı və qüdrətli dövlətinə çevirdi. Yeni meydana gələn müstəqil ölkələr üçün Türkiyə özünün demokratik mahiyyəti və azad bazar iqtisadiyyatı ilə nümunə rolunu oynayırdı. Bu rol Qərb müttəfiqləri tərəfindən də təşviq edilir və Türkiyənin nüfuzu sayəsində regionda Rusiya və İranın təsirinin azaldacağına ümid bəslənilirdi.

Türkiyə 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olub. Azərbaycanın müstəqilliyinin ilk günlərində gənc Azərbaycan diplomatları üçün Türkiyə öz diplomatik missiyalarında lazımi iş şəraiti yaratmaq üçün əlindən gələni əsirgəmirdi. Türk və Azərbaycan diaspora təşkilatları Qərb ölkələrində öz maraqlarını müdafiə etmək üçün uğurla əməkdaşlıq edirlər. Azərbaycan-Türkiyə münasibətləri Qafqaz regionunun geosiyasətində də mühüm rol oynayır və regionun digər ölkələri ilə, xüsusən də Azərbaycanın Qarabağ bölgəsini işğal etmiş qonşu Ermənistan ilə münasibətləri formalaşdırır. 2008-ci ildə Türkiyə Avropa İttifaqına qoşulmaq istiqamətində atılan addımların bir hissəsi kimi Qarabağ məsələsində mövqeyini yumşaltmağa başladı. Avropa İttifaqı ilə ABŞ-ın təzyiqi altında Türkiyə Ermənistana qarşı ticarət embarqosunun qaldırılmasına çalışdığı hiss olunurdu. Qlobal siyasi təsir altında 2009-cu il oktyabrın 10-da İsveçrənin Sürix şəhərində Türkiyə ilə Ermənistan arasında diplomatik əlaqələrin qurulması və sərhədlərin açılmasını nəzərdə tutan "Sürix protokolları" imzalandı. Amma işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsindən əvvəl Türkiyə Respublikasının Ermənistan-Türkiyə sərhədini açmaq və Ermənistanla ticarət əlaqələrini bərpa etmək istəyi rəsmi Bakıya qarşı yönəlmiş xəyanət aktı kimi görünürdü. Əlbəttə ki, rəsmi Ankara öz niyyətləri barədə Bakıdakı həmkarlarını məlumatlandırsa da, Azərbaycan torpaqlarının işğalı məsələsinin həlli ilə bağlı ölkəmizi danışıqlara cəlb etmək barədə öz nüfuzlu həmkarları ilə birlikdə məsləhətləşmələr aparmağa nail ola bilməmişdi.

Türkiyənin bu siyasi addımı onun Azərbaycanla olan münasibətlərinə mənfi təsir etmiş və ölkəmiz buna qarşı öz məyusluğunu ifadə etmişdi. Prezident İlham Əliyev Türkiyədə keçiriləməsi nəzərdə tutulan vacib beynəlxalq və ikitərəfli görüşlərdə iştirak etməkdən imtina etmiş və 2009-cu ilin aprelində BMT-nin Sivilizasiyalar Alyansının yüksək səviyyəli İstanbul zirvə toplantısına planlaşdırılan səfərini də ləğv etmişdi. Türkiyənin Prezident İlham Əliyevin bu tədbirdə iştirakını təmin etmək cəhdləri uğursuzluğa məruz qalmış, eyni zamanda, ABŞ-ın dövlət katibi Hillari Klintonun da İstanbul zirvə toplantısında Prezident Obamanın Azərbaycan dövlət başçısı ilə görüşü barədə telefon danışıqları da bir nəticə verməmişdi.

Türkiyə Prezidenti Ərdoğan Azərbaycanla münasibətlərin qorunub saxlanılması kimi çətin bir məsələ ilə üzləşmişdi. Nəticədə o, Ermənistanla münasibətlərin qurulması sahəsində geriyə doğru bir addım atdı. Ermənistanla sərhədin açılması ölkə daxilində güclü etirazlara səbəb ola bilərdi. Türk cəmiyyəti də bu dəyişiklikləri çox diqqətlə izləyirdi. Türk mətbuatı və ölkənin əsas müxalifət partiyaları Azərbaycana və onunla olan qardaşlığa qarşı xəyanət etmək istəyinə görə yerli hökuməti tənqid atəşinə tutur və yaranmış bu yeni siyasi şəraitin "bir millət - iki dövlət" prinsiplərini təhlükə altına atan addım kimi qiymətləndirdi. Nəticə etibarilə, Ərdoğan Ermənistanın Azərbaycan torpaqlarının azad edilməsini Türkiyə-Ermənistan protokollarının imzalanması və təsdiqlənməsi üçün ilkin şərt olaraq qaldığını bəyan etdi.

Qərbin təzyiqi ilə Türkiyənin Ermənistan məsələsində mövqeyini yumşaltmaq cəhdləri Azərbaycanın maraqlarına qəti uyğun gəlmirdi. Bakıdakı hökumət rəsmiləri bildirirdilər ki, Azərbaycan da Türkiyə maraqlarına aid məsələlərdə böyük təzyiqlərə məruz qalmış, lakin Azərbaycan rəhbərliyi bu təzyiqlərə təslim olmayıb və Türkiyə ilə olan münasibətlərini təhlükə altına atmayıb. Prezident Heydər Əliyev Azərbaycan neftini dünya bazarlarına çıxarmaq üçün əsas ixrac neft kəmərini Türkiyənin Ceyhan limanına qədər uzadılmasını təklif edəndə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin bir çox səhmdarları buna qarşı çıxır və onlar Rusiya ərazisindən keçən şimal marşrutu və Gürcüstan ərazisindən keçən qərb marşrutu və ya bərə vasitəsilə İran ərazisindən keçən cənub marşrutu kimi digər beynəlxalq satış istiqamətlərini təklif edirdilər. Mən əsas ixrac boru kəmərinin seçilməsi ilə bağlı baş verən bütün bu proseslərin şahidi olmuşam və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin ilk prezidenti Terri Adamsın diplomatcasına dediyi fikirləri yaxşı xatırlayıram: "Əsas ixrac marşrutu ya Rusiya ərazisindən keçə bilər, ya Supsa terminalı vasitəsilə, ya da ki, Ceyhan limanına qədər uzana bilər".

Prezident Heydər Əliyev Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin səhmdarları arasında boru kəmərinin marşrutu ilə bağlı yaranan mübahisələrdən çox narazı idi. Əsas ixrac boru kəməri vasitəsilə ilk neftin nəqli üçün 54 aylıq bir müddət müəyyən edilmişdi və işin icrası bu mübahisələr səbəbindən gecikirdi. Bakı-Tbilisi-Ceyhan marşrutu Heydər Əliyevin təkid etdiyi yeganə variant idi.

Heydər Əliyev çıxışlarının birində belə demişdi: "İmzaladığımız müqaviləyə və Bakı-Tbilisi-Ceyhan nəqliyyat marşrutuna qarşı çıxan insanlar var idi... Onlar Azərbaycana qarşı manevələr yaradırdılar. Axı, neft bizə məxsusdur və neft üçün ixrac marşrutunu müəyyən etmək də ilk növbədə, bizim hüququmuzdur. Bizi çox böyük təzyiqlərə məruz qoyurdular... Sonda biz bütün bunlara qalib gəldik və həmin müqaviləni imzaladıq... Onlar Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin inşasına qarşı çıxırdılar... Amma biz qətiyyətimizi nümayiş etdirərək öz yolumuzdan dönmədik".

Enerji və nəqliyyat sahəsindəki sıx əməkdaşlıq Azərbaycanı Türkiyənin regiondakı ən böyük tərəfdaşına çevirdi. Bakı ilə Türkiyənin Qars vilayəti, daha sonra isə Balkanlarla birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu Çin ilə Avropa ölkələri arasında ən qısa marşrut olan daha bir mühüm regional layihədir. Bakı-Tbilisi-Ceyhan neft və Cənub Qafqaz Qaz Boru kəmərləri, Cənub Qaz Dəhlizi çərçivəsində həyata keçirilən "Şahdəniz-2" meqa layihəsi də bu əməkdaşlıqda mühüm rol oynayır.

Mən Türkiyə ilə Azərbaycan arasındakı bu strateji tərəfdaşlığın böyük nailiyyətlərinin və qardaşlığın formalaşmasının şahidi olmuşam. BP-nin dünyada ən böyük neft və qaz terminalı olan Bakı yaxınlığındakı Səngəçal terminalında Türkiyədən olan bir sıra yüksək səviyyəli nümayəndə heyətlərini qəbul etmək mənim üçün böyük şərəf olub. Prezident Rəcəb Tayyib Ərdoğan, Türkiyə Parlamentinin spikerləri Bülent Arınç və Köksal Toptan, o cümlədən çoxsaylı hökumət nazirləri və digər görkəmli şəxslərlə görüşmək, onları neft və qaz sektorunda baş verən proseslər haqqında məlumatlandırmaq böyük şərəf idi. Osmanlı ordusunun İrəvan şəhərində xilasetmə əməliyyatlarına qatılan bir ailənin nümayəndəsi kimi türk ordusunun hərbi komandirləri ilə görüşməkdən mən xüsusilə şərəf duymuşam. Qarabağ müharibəsi veteranı kimi Türkiyənin Ordu generalları ilə görüşməkdən böyük qürur hissi keçirmişəm. Türkiyənin əsrlərboyu davam edən şanlı tarixində bir çox dəyişikliklər baş versə də, dəyişməz qalan bir şey var, o da türk ordusunun nümayiş etdirdiyi peşəkarlıqdır. Onlar bu gün də öz ölkələrinin milli təhlükəsizliyini müdafiə edən qəhrəman döyüşçülərdir. Türkiyənin ordu generalları Hilmi Özkök, İlker Başbuğ, Həsən Iğsız və NATO-nun Cənub-Şərq hərbi kontingentinin komandiri Oktar Atamanla Səngəçal terminalında görüşlərim zamanı onlar Türkiyə silahlı qüvvələri barəsində danışarkən qeyd ediblər ki, Türkiyə ordusu bu gün özünün ən yaxşı formasındadır. NATO-nun əsas üzvlərindən biri kimi Türkiyə Azərbaycanın karbohidrogen məhsullarının Avropa İttifaqı ölkələrinə çatdırılmasını və Avropada enerji təhlükəsizliyini dəstəkləmək üçün boru kəmərlərinin mühafizəsini prioritet məsələ kimi daim diqqət mərkəzində saxlayır. Türkiyə hərbçiləri Azərbaycan ordusu ilə müdafiə və təhlükəsizlik məsələlərində sıx əməkdaşlıq edir və ölkəmizə NATO standartlarına çatmaq istiqamətində köməklik edirlər. Azərbaycanla Türkiyə arasında olan strateji əməkdaşlıq təkcə Cənubi Qafqazda deyil, o cümlədən Avropada da bütün ölkələrə iqtisadi dividendlər qazandırır və sabitlik gətirir.

***Qivami Rəhimli,***
***Bakı Dövlət Universitetinin dosenti, fəlsəfə doktoru, Hökumətlə işlər üzrə baş müşavir, BP Azərbaycan***




# Təbiətin sirli möcüzəsi olan Quba

*Əsrarəngizliyi ilə cəlb edən məkana cari ilin 6 ayında gələn turistlərin sayı 25926 nəfər olub*

***Odlar diyarı Azərbaycanın misilsiz gözəlliklər diyarı, zəngin təbiət muzeyi kimi tanınması əlbəttə ki, ilin bütün fəsillərində zirvəsinin qarla örtülü, zəngin və nadir ovalıqları, təkrarolunmaz gözəlliyə malik gölləri, çayları və bulaqlarının olması ilə səciyyəvidir. Deyirlər ki, dünyanın möcüzəli məkanının yeraltı aləmi tükənməz xəzinə, yerüstü isə canlı muzeydir.***

Yer üzündəki 11 iqlim qurşağının 9-u əgər Azərbaycandadırsa, demək, bu məkanın dəyəri heç nə ilə ölçüyə gələ bilməz. Əfsanəvi İpək Yolu üzərində yerləşən Azərbaycan bütün zamanlarda hər bir qonağa açıq ölkə olub. Gözəl mənzərələri ilə tanınan Odlar yurdu qədim və müasirliyi ilə seçilən bir məkan kimi yer üzündə tanınır. Ölkəmizin hər bir diyarı əsrarəngiz gözəlliyi ilə seçirir. Hər bir bölgənin özünəməxsusluğu, cazibəliyi var. Elə Böyük Qafqazın Şahdağının şimal-şərq yamaclarında, Qudyalçayın sahilində yerləşən Quba kimi. Əbəs deyil ki, bu rayon turistlərin ən sevimli yerlərindən birinə çevrilib. Mətbəxi, ənənəvi yaşayış tərzinə sadiqliyi, ailə dəyərləri, koloriti və əsl Şərq mühiti ilə fərqlənən Quba turizm potensialı ilə fərqli və zəngindir. Qubaya gələn turistlər rayonun tarix və mədəniyyət abidələrinə biganə qala bilmirlər. Əlbəttə ki, son illər ölkəmizin hər bir yerində olduğu kimi, Quba rayonunda da yaradılmış infrastruktur turizmin inkişafına təkan vermişdir. Kənd yollarının yenidən qurulması turizmin inkişafı deməkdir. Rustov-Xanəgah-Girdəh, Rustov-Növdün-Şuduq, Rustov-Məcgə xacə, Rustov-Baxçalı-Yekdar avtomobil yolunun istifadəyə verilməsi yeni turizm istiqamətinin açılmasına səbəb olmuşdur.

Qubaya gələn qonaqlar, ilk növbədə, dağların qoynundakı Xınalıq kəndinə, Allahın möcüzəsi kimi qələmə verilən bu diyara getməyi arzulayırlar. Axı bu unikal yaşayış məskəninin dünyada analoqu yoxdur. Xınalığı açıq səma altında muzeyə də bənzədirlər. Rayon mərkəzindən 58 kilometr məsafədə, dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşən bu kənd - özünəməxsusluğu ilə marağa səbəb olur. Hündürlüyü 75-80 metrə çatan əzəmətli "Afurca şəlaləsi"nə də üz tutanların sayı çoxdur. Şəlaləni görmək istəyənlər məşhur "Təngə dərəsi"ndən də keçməli olurlar. Xınalıq kəndində Qudyalçay üzərindəki Tağlı körpü, eləcə də, Avropanın ən uca dağ kəndi sayılan IX əsrə aid Atəşpərəstlər məbədi mühafizə olunur.

Xınalıq qoruq elan edildiyi üçün burada yeni binaların tikintisi qadağandır. Bu gün Xınalığa çoxlu turist gəlir. Əcnəbiləri daha çox maraqlandıran Xınalıq dilidir. Yerli adət və ənənələri qoruyan Xınalıq camaatının danışdığı dil heç bir dil ailəsinə mənsub deyil. Hər il yenidən bura gələn almanlar, hollandlar, fransızlar və amerikalılar Xınalıq dilini öyrənməyə cəhd edirlər. Rəvayətlərə görə xınalıqlılar Nuh peyğəmbərin danışdığı dildə danışırlar. Xınalıqlılar özləri də bunu inkar etmir. Bir neçə alim-dilşünas Xınalıq dilinin tədqiqi ilə məşğul olmuş və nəticədə, Xınalıq dili haqqında bir neçə elmi kitab nəşr olunmuşdur. Xınalıq dilinin hansı dil qrupuna aid edilməsi barəsində illər boyu mübahisələr gedib.

Turistlərin Qubadakı təbiət abidələrinə də marağı böyükdür. Rayon ərazisində 60-dan çox təbiət abidəsi mövcuddur. "Xan bulağı", "Ağacda ev", "Atəşgah", "Cəfər dərəsi", "Minarə", "Xaşı istisuyu", "Sona bulağı" kimi təbiət abidələrinə maraq çoxdur. Memarlıq abidələrindən Ağbil türbələri, Alpan kəndində Subaba türbəsi, Birinci Nügədi kəndində məscid və minarə, Hacı Cəfər və Cümə məscidləri, Gümbəzli hamam vardır. Bundan başqa, Rustov kəndində "Ələmu" adlı qala və tarixi məsciddə yerləşir.

Bu abidələr sırasında XIX əsrə aid Səkinəxanım məscidi də var. XIX əsrə aid bu məscidin spesifik xüsusiyyəti qadın adı daşımasıdır. Məscid öz monumentallığı ilə insanları heyrətə gətirir. Doqquz günbəzli məscid binasının hündürlüyü 27 metrdir. O, qırmızı kərpicdən tikilib və tilli silindri xatırladır. Sovet dövründə burada anbar və tikiş sexi yerləşib. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra məscid bərpa edilib və yenidən dini ibadətgah kimi istifadəyə verilib.

Bu gün Qubada müasir istirahət mərkəzləri, otellər inşa olunub və bəziləri bərpa və təmir edilib. Qudyalçayın sahilində inşa olunmuş "Rixos Quba Azərbaycan" oteli maraqlı memarlıq üslubunda tikilmişdir. Avanqard və modern memarlıq üslublarının sintezi əsasında inşa edilən binanın interyerinin tərtibatında xaricdə hazırlanan mebel və aksessuarlardan istifadə olunmuşdur. Turistlərin Heydər Əliyev Beynəlxalq Aeroportundan "Rixos Quba Azərbaycan" otelinə çatdırılması üçün özəl VİP servis və helikopter xidməti göstərilir. Dünya standartlarına cavab verən mərkəzlərdən biri Quba Olimpiya Kompleksidir ki, burada müasir səviyyəli idman zalları inşa edilib. Böyük futbol, mini-futbol, basketbol, voleybol, tennis, üzgüçülük meydançaları var. Kompleksdə qonaqlara Avropa standartlarına cavab verən şəkildə xidmət olunur. "Nazlı bulaq" İstirahət Mərkəzi, "Məst Dərgah" İstirahət Mərkəzi, "Bərpa SPA" Mərkəzi, "Oskar" oteli və digər mərkəzlər müasir standartlara cavab verir.

Qubada, həmçinin, dünya yəhudilərinin ən böyük icmalarından birinin yaşadığı məşhur Qırmızı Qəsəbə yerləşir. Qeyd edək ki, ümumiyyətlə, Quba çoxmillətli rayondur, burada 20-dən artıq azsaylı xalq yaşayır. Onların 79 faizini azərbaycanlılar, 9 faizini tatlar, 6 faizini ləzgilər, 1,8 faizini yəhudilər, 1,4 faizini türklər, 1,4 faizini xınalıqlılar və 1,2 faizini digər xalqların nümayəndələri təşkil edir. Qubadakı Qırmızı Qəsəbədə çayın bir sahilində sinaqoqlar, o biri sahilində məscidlər fəaliyyət göstərir. Bu fakt Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələrinin mövcudluğunun sübutudur.

Bu kəndin sakinləri, əsasən, ticarətlə məşğul olurlar. Kəndin əhalisi öz dili ilə ayrıca etnoqrafik qrup təşkil edir. Şəhərin kənarında, Qudyalçayın sağ sahilində yerləşən bu qəsəbənin yəhudi sakinləri özlərini "cuqur" adlandırırlar. Onlara, həmçinin, dağ yəhudiləri deyilir. Qəsəbədə 13 sinaqoq var, lakin indi onların ikisi fəaliyyət göstərir. Yəhudilərin köçürülmələri zamanı burada 360 ev, 1200-1500 sakin vardı. Bu gün isə Qırmızı Qəsəbədə təxminən 4-5 min yəhudi yaşayır.

Quba yəhudiləri bu əraziyə köçürülmələrinə görə Hüseynəli xana və Fətəli xana borcludurlar. Mənbələrdə qeyd olunur ki, yəhudilərin buraya köçü Nadir şahın hakimiyyəti dövründə (1736-1747) baş verib. Qubanın fəthindən sonra Nadir şahla birgə gələn yəhudilər Qələdüz və Küpçal kəndləri arasındakı ərazidə yerləşdirilib. Yəhudi ağsaqqalları icmanın təhlükəsizliyini təmin etmək xahişi ilə Hüseynəli xanın sarayına (xanın yay sarayı indi "Günbəzli hamam" deyilən yerdə olub) gediblər. Xan onlara indiki Qırmızı Qəsəbənin yuxarı hissəsində yer verib. Yəhudiləri gecə talanları və qəfil hücumlardan qorumaq üçün 1765-ci ildə Fətəli xan onları bu gün yaşadıqları əraziyə köçürüb.

Azərbaycanın şimal-şərqində yerləşən Quba Xalça Mərkəzi üç hissəyə-dağlıq, dağətəyi və ovalıq hissələrə bölünür. Dağlıq hissəyə - Qonaqkənd, Xaşı, Cimi, Afurca, Yerfi, Buduq, Qırız, Cek, Salmasöyüd kəndlərində mərkəzləşmiş məntəqələri aid etmək olar. Dağətəyi hissədə xalça istehsalı - Əmirxanlı, Əlixanlı, Xəlfələr, Pirəmsan, Bilici, Şahnəzərli, Pirəbədil, Zeyvə, Zöhrami, Sumaqobaq, Xırdagül-çiçi, Sırt-çiçi, Dərə-çiçi məktəbləri, Ovalıq hissədə isə Şabran aran zonasında Çay Qaraqaşlı, Hacı Qaraqaşlı, Süsənli, Qaraqaşlı, Dəvəçi, Mollakamallı və s. kəndlərdə mərkəzləşib. Bu məktəbə, həmçinin də, Dərbənd ərazisində toxunan xalçalar da daxildir. Quba xalçalarının bəzəyini həndəsi naxışlardan ibarət ornamentlərin stilizə edilmiş nəbati, bəzən isə heyvan motivləri təşkil edir. Bu məktəbin xalçalarında medalyonlu çeşni üslubu da geniş yayılmışdır. Quba xalçalarının ən parlaq kompozisiyaları "Qədim-Minarə", "Qımıl", "Alpan", "Qollu-çiçi", "Pirəbədil", "Hacıqayıb", "Qırız", "Cek" və s.-dir. Bu zonada toxunan "Çiçi", "Qımıl", "Cimi" kimi xalçaları dünyanın bir sıra muzeylərinin və şəxsi kolleksiyalarını bəzəyidir. Bildiyimiz kimi, bu gün "Azərxalça" ASC-nin Quba filialı fəaliyyət göstərir. Burada 150 toxucu və 12 inzibati-təsərrüfat işçisi çalışır. Burada 43 dəzgahda əsasən Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində hazırlanmış tarixi və orijinal çeşnilər əsasında xalçaların toxunmasına üstünlük verilir. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib.

Deyilənə görə, Nizaminin şərəfinə adlandırılan Nizami Parkını 1946-cı ildə alman əsirləri salıb. Parkın ərazisi yaşıllığa bürünüb, ağacların kölgəsində fəvvarələr şırıldayır. Parkda Azərbaycanın dahi şairi Nizami Gəncəvinin abidəsi ucaldılıb. Abidənin ətrafında xiyaban boyu Nizaminin əsərlərindən səhnələri əks etdirən barelyeflər qoyulub.

Nizami adına Parkda hamının diqqətini cəlb edən tikili Quba Şahmat Məktəbinin binasıdır. Beş il əvvəl inşa olunmuş binada şahmatçıların hazırlanması üçün hər cür şərait yaradılıb, yarış zalında eyni vaxtda 350-dək şahmatçı mübarizə apara bilər. Parkda turistləri tez-tez görmək olar. Xiyabandan pilləkənlə Qudyalçay üzərindəki qədim Tağlı körpüyə enmək mümkündür. Pilləkən boyu qızıl suyuna çəkilmiş müxtəlif heykəllər qoyulub. Bu piyada körpüsü xiyabanı dağ yəhudilərinin yaşadığı Qırmızı Qəsəbə ilə birləşdirir.

Hərbi tərcüməçi, diplomat, rus ordusunun zabiti olmuş ilk azərbaycanlı Abbasqulu ağa Bakıxanov bu məkanın yetirməsidir. Ensiklopedik biliklərə malik alim Quba qəzasının Amsar kəndində boya-başa çatıb. Beş tarixi-ədəbi əsərin, eləcə də, "Gülüstani-İrəm"in müəllifidir. Müəllif 1841-ci ildə fars dilində yazdığı, 1843-cü ildə rus dilinə tərcümə etdiyi bu əsərdə "Gülüstan" sülh müqaviləsinə qədər Azərbaycan tarixini əks etdirib. Qubada, Ərdəbil küçəsi, 93 ünvanında yerləşən XIX əsrə aid binada - vaxtilə Bakıxanovların yaşadıqları evdə A.Bakıxanov adına Tarix-Diyarşünaslıq Muzeyi yaradılıb. Ümumi sahəsi 742 kvadratmetr olan muzeydə 10 mindən çox müxtəlif eksponat qorunur. Hər il muzeyə 3000-dən çox turist gəlir. Burada "Muzeydə bahar" adlı aksiya, habelə, "Açıq qapı" günü keçirilir. Amsar kəndində isə A.Bakıxanovun Ev-Muzeyi yerləşir.

Belə bir mənzərəli, tarixi ilə seçilən Qubanı seyr etməmək, oranın görməli yerlərindən maraqlı məlumatlar toplamamaq mümkün deyildir. İnsanı təbiət yaratdığından öz sərvətlərini də ondan əsirgəməmişdir. Hər bir iqlim qurşağının təbii gözəlliyini sadalamaq insana nə qədər xoşdursa, Azərbaycan məkanlarında olub, onun görməli yerlərinin abhavasını duymaq da, o qədər xoşdur. Təbiəti Tanrı sanki sənət əsəri yaradıb hər lövhəsində rəngarənglik var. Bu gözəlliyi duymaq və görmək üçün Qubaya gələn turistlərin sayı ilbəil artır. Statistik məlumatlar əsaslanaraq deyə blərik ki, cari ilin 6 ayında Qubaya gələn turistlərin sayı 25926 nəfər olub. 14112 nəfər Azərbaycanlı, 11814 nəfər əcnəbi dincəlmək üçün Qubanı seçib. Əcnəbilər sırasında Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistan, Pakistan, İsrail, Oman, Kuveyt və Rusiyadan olan turistlər var. Bu statistik rəqəm, artıq çox məqamı demiş olur. Bizlər isə təbiətin bizə bəxş etdiyi bu gözəlliyi qorumalı, onu gələcək nəsillərə ötürməliyik.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Serj Sarkisyanın Baden-Baden kefi və "sarı mayolu" Ermənistanı qarışdırıb

*Erməni KİV-ləri və sosial şəbəkələr Nikol Paşinyanı hədəfə alıblar*



***Ermənistanın sabiq və devrilmiş prezidenti Serj Sarkisyanın Almaniyanın Baden-Baden kurort şəhərindəki sanatoriyaların birində, hovuzda istirahət etməsi erməni KİV-lərinin və ictimaiyyətinin çoxsaylı müzakirəsinə səbəb olub. Məsələ ondadır ki, bu günün özündə də, Nikol Paşinyan hakimiyyətinin ayrı-ayrı təmsilçiləri Serj Sarkisyan dövrünü quldur rejim adlandırırlar. O cümlədən, hazırkı baş nazirin "məxməri inqilab"ını da həmin rejimə qarşı baş verdiyi, xüsusilə xatırlanır. Lakin bütün bunlara rəğmən, onun Robert Koçaryandan fərqli olaraq, nəyə görə ittiham olunmaması, həbs edilməməsi hələ də bir sıra sualları doğurmaqdadır.***

### "Sarkisyanın Baden-Badendə kef etməsi Ermənistanda hər hansı bir inqilabın baş vermədiyini sübut edir"

Bu arada ermənilərin "1in" saytı sözügedən məsələ ilə bağlı təhlillə çıxış edib və orada qeyd olunur ki, məhz Sarkisyanın Baden-Badendə kef etməsi Ermənistanda hər hansı bir inqilabın baş vermədiyini sübut edir.

"Serj Sarkisyanın Baden-Badendə çəkilmiş "sarı mayolu" fotosu sosial şəbəkələrdə yayıldıqdan sonra bu məsələ mövcud hakimiyyətin fəaliyyətsizliyinin indikatoru kimi qiymətləndirildi", yazılan şərhdə bildirilir ki, Serj Sarkisyan heç vaxt dəyişilmir və o, bütün həyatı boyu "kayfarik" (kef çəkən) kimi qalıb...

Daha bir maraqlı məqam onun 2016-cı ilin aprel müharibəsi zamanı Moskvaya qaçmasının xatırladılmasıdır: "Artsax"da (dırnaqlar bizimdir) müharibə olarkən, o kifayət qədər şübhəli missiya ilə Moskvaya qaçdı".

### "Serj Sarkisyan Ermənistana və "Artsax"a, hətta həbsxanaya düşmüş müharibə dostu Robert Koçaryana və hüquq-mühafizə orqanlarından qaçaq düşmüş, gələcək məhbus statusunu daşıyacaq qudasına belə "tüpürür"

Digər nüans isə, Sarkisyanın hələ Ermənistanın iqtidarında olarkən, onun Baden-Badeni seçməsi, bu kimi kefləri üçün Ermənistanı oğurlayıb-talaması ilə bağlıdır: "Robert Koçaryan və Serj Sarkisyan milyardlar əldə etmələri üçün Ermənistanı amansızcasına talan elədilər və baden-badenlərə xərclədilər. Və bu gün Serj Sarkisyan Ermənistana və "Artsax"a, hətta həbsxanaya düşmüş müharibə dostu Robert Koçaryana və hüquq-mühafizə orqanlarından qaçaq düşmüş, gələcək məhbus statusunu daşıyacaq qudasına belə "tüpürür". Serj Sarkisyanın Baden-Badendəki fotoşəklini görən hər bir vətəndaş xəyal edir ki, "devrilmiş" olsun və ölkəni vicdansızcasına talan edib, sonra da cəzasız qalsın".

"Serj Sarkisyan, bilavasitə sübut etdi ki, Ermənistanda bir il qabaq inqilab olmayıb, əks halda, on minlərlə insanın hədəfinə çevrilmiş şəxs burjuy kefini davam etdirə bilməzdi" yazan erməni saytı sual edib ki, nəyə görə Serj Sarkisyan həbsdə deyil?

Bu məsələdə Nikol Paşinyanı da hədəfə alan yazıda qeyd olunur ki, erməni baş nazir bu suala cavab verməyərək, Ermənistanda inqilab edib, məhz Serj Sarkisyanı devirən on minlərlə insanı təhqir edir: "Sarkisyan hansı magiyalı gücə sahibdir ki, inqilabın "məxmərindən" bütün gözəllikləri ilə istifadə edir və bahalı alman kurortunda dincəlir. Ermənistanda inqilab baş verməyib - bu Serj Sarkisyanın bahalı sahildə və "sarı mayo"da vəd etdiyi müsahibə idi. Hər gün Respublika Partiyasının "təəssübkeş" oğulları və adekvat gənclər çağırışlardan danışırlar, hansı ki, onların liderləri özünü sıravi və məsuliyyətsiz xuliqan kimi aparır".

### "Ermənistanda kleptokratiya uduzmayıb"

"Bax beləcə, bir ildir ki, Serj Sarkisyan Ermənistanın nüfuzunu toza çevirir, kazinolarda Ermənistanın və "Artsax"ın təhlükəsizliyini uduzur, indi də, o, inqilabı, Nikol Paşinyanı ələ salır. Hansı ki, bu məsələdə nəyə görə barmaqlıqlar arasında olmayan Serj Sarkisyan barədə növbəti lüzumsuz nağıllar qoşacaq", yazan erməni saytı sonda qeyd edir: "Ermənistanda kleptokratiya uduzmayıb və bunu hər gün təkrarlamaq lazımdır. Nə qədər ki, Nikol Paşinyanın "məxməri" baxışları altında Serj Sarkisyan tərəfindən talan edilmiş milyonlar Baden-Badendə xərclənir".

**Rövşən RƏSULOV**

# Ermənistan müstəqilliyini itirə bilər

*"Avropa İttifaqının, ATƏT-in və BMT-nin münaqişə ilə bağlı qərarlarına diqqət yetirdikdə, görürük ki, zaman bizə işləyir"*

***Ermənistanın işğalçılıq siyasəti nəticəsində, Azərbaycanın əraziləri işğal edilib, mədəniyyət abidələri dağıdılıb, yüz minlərlə insan ev-eşiyindən didərgin salınıb, minlərlə insan qətlə yetirilib və yaralanıb. Ermənistan vandalizm siyasətini Azərbaycan ərazilərində yanğınlar törətməklə, nəzarətsiz ərazilər olmasından istifadə etməklə, narkotik maddələr becərməklə və beynəlxalq miqyaslı terrorçuların yetişdirilməsi ilə davam etdirir. Sual olunur, dünyada sülhün və əmin-amanlığın carçısı rolunda çıxış edən dövlətlər və beynəlxalq təşkilatlar niyə Ermənistanın vandalizm siyasətinə göz yumur? Söhbət etdiyimiz müsahiblərimiz beynəlxalq birliyin erməni vəhşiliyinə hələ də susqunluq nümayiş etdirməsini onların ermənipərəst mövqeləri ilə əlaqələndirdilər.***

Millət vəkili Azər Badamov:

### "Ermənistanın özbaşınalığının səbəbi onların erməni, bizim isə müsəlman olmağımızdır"



- Erməni işğalı altındakı Azərbaycan torpaqları nəzarətsiz zonaya çevrilmişdir. Orada ermənilər narkotik bitkilər yetişdirir və narkoticarət marşurutu kimi istifadə edirlər və oradan daşınan narkotiklər həm Avropaya, həm də Rusiyaya daşınır. Bu ərazilərdə beynəlxalq terrorçular yetişdirilir və bir sözlə Ermənistanın işğalı altında olan Dağlıq Qarabağ dünya üçün təhlükəli əraziyə çevrilib. Amma çox təəssüflər olsun ki, beynəlxalq güc mərkəzləri, dünya ictimaiyyəti bunu bilə-bilə səsini çıxarmır və bütün bu özbaşınalıqlarla razılaşmış kimi sükut içindədir. Ermənilərin bu özbaşınalıqlarına dünya ictimaiyyətinin göz yummasının kökündə onların erməni, bizim isə müsəlman olmağımız dayanır. Dünyada nə haqq-ədalət var, nə də beynəlxalq hüquq. Çünki haqq-ədalət olsaydı, ermənilərin bu qədər özbaşınalıqlarına imkan verilməzdi. Biz isə, beynəlxalq siyasi meydanda mübarizəmizi davam etdiririk və daha da dərinləşdiririk. Son zamanlar Avropa İttifaqının, ATƏT-in BMT-nin və digər beynəlxalq təşkilatların münaqişə ilə bağlı qərarlarına diqqət yetirdikdə, görürük ki, zaman bizə işləyir. Ermənilərin iç üzü ifşa olunmaqdadır, beynəlxalq təşkilatlarda tərəfdarların sayı kəskin azalır və demək olar ki, erməni lobbisi iflasa uğramaq üzrədir. Azərbaycan diplomatiyasının imza atdığı uğurların sayı artmaqdadır və düşünürəm ki, gün gələcək beynəlxalq ictimaiyyət də ermənilərin özbaşınalıqlarına qarşı birləşərək, səsini ucaldacaqdır. Biz beynəlxalq siyasətdə möhkəmlənirik, ordumuz güclənir və qələbəni yaxınlaşdırırıq. Ermənilər isə, günbəgün iflasa doğru gedir. Bu günün reallığını belə görürəm.

Politoloq Elşən Manafov:

### "Ermənistan işğal olunmuş Azərbaycan ərazilərindən narkoticarət marşrutu kimi istifadə edir "



- Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərindən narkoticarət marşrutu kimi istifadə etməsi ilə bağlı məlum məsələ azərbaycanlı deputatların səyləri ilə dəfələrlə Avropa Şurasının Parlament Assambleyasının müzakirəsinə çıxarılıb. Bununla bağlı qurumun qəbul etdiyi müəyyən qərarlar da var. Hərçənd ki, həmin qərarlara qurum tərəfindən ikili standartlardan yanaşılması da açıqaşkar özünü büruzə verir və istisna etmirəm ki, bu, həm də əlbəttə ki, təəssüf doğurur. Eyni zamanda, həmin qərarların qəbul olunmaması üçün elə AŞPA-nın özündə beynəlxalq narkobaronlara bu və ya digər dərəcədə bağlı olan müəyyən siyasətçilər və deputatlar var ki, onlar da, həmin məsələlərin ciddi şəkildə müzakirəyə çıxarılmasının qarşısını almağa çalışırlar. Bu məsələdə də erməni diasporasının və deputatlarının lobbiçilik fəaliyyəti həmişə özünü, birmənalı şəkildə büruzə verib. Ona görə də, bu məsələdə bizim israrlı mövqelərimizə baxmayaraq, məlum qərarların qəbul edilməməsi həm erməni lobbisinin, həm də beynəlxalq narkoticarətə himayədarlıq edən ayrı-ayrı siyasətçilərin və deputatların səyləri nəticəsində, baş tutmur. Amma təbii ki, biz səylərimizi bundan sonra da gücləndirməliyik. Düşünürəm ki, təkcə Avropa Parlamenti deyil, BMT-də və digər təşkilatlarda bu məsələ daim diqqətdə saxlanılmalıdır.

**GÜLYANƏ**

# Ermənistan dilemma qarşısında



Mövcud Ermənistan hakimiyyəti ciddi bir dilemma qarşısında qalıb. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Past" qəzeti yazır.

Qəzetin yazdığına görə, mübahisəsiz həqiqət ondan ibarətdir ki, hər hansı bir hökumət üçün, kadr siyasəti ən vacib komponent hesab edilir və bunun sayəsində düzgün idarə olunma mümkündür və bu problemlə, xüsusən də qubernatorlar məsələsi ilə əlaqədar olaraq, Ermənistanın hakimiyyəti ciddi dilemma qarşısındadır. Məlumata görə, gələn ay ərzində Nikol Paşinyan "kadr siyasətində" dəyişiklik etməyi planlaşdırır və əslində bir neçə qubernator artıq öz vəzifələri ilə vidalaşır.

**İnam Hacıyev**

# Ermənistan İrana görə Vaşinqtona yalvarır



Ermənistan parlamentinin spikeri İrana qarşı tətbiq edilən sanksiyalara görə Vaşinqtonu Ermənistana təzyiq göstərməməyə çağırır. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Ermənistan parlamentinin spikeri Ararat Mirzoyan Amerika Birləşmiş Ştatlarının Atlantik Şurasında çıxış edərkən deyib və Ermənistanın Birləşmiş Ştatlarla əlaqələrə maraqlı olduğu barədə bəyanatını "Amerikanın səsi" də dərc edib.

Ermənistan parlamentinin spikeri reallaşdırılmış inqlabı bəhanə gətirərək ABŞ tərəfindən yardımların həcminin artırılacağı arzusunda olduğunu da gizlətməyib. Mirzoyan həmçinin bildirib ki, ABŞ ilə İran arasında münasibətlərdə gərginlik Ermənistan iqtisadiyyatına mənfi təsir göstərir. "ABŞ-ın İrana qarşı sanksiyalar tətbiq etməsi fonunda Ermənistana təzyiq göstərməsini istəmirik. İstəmirik ki, Ermənistan bu sansiyalara görə itgilərə məruz qalsın", deyə o bildirib.

# Donald Tuskun Cənubi Qafqaz turnesi: “Şərq tərəfdaşlığı”nda yeni mərhələ kontekstində

***Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Azərbaycandan sonra Ermənistana və Gürcüstana səfər etməsi region üçün aktual olan bir neçə geosiyasi məsələni yenidən gündəmə gətirib. Ekspertlər postsovet məkanı üçün əhəmiyyəti olan bir sıra məqamların daha da aktuallaşdığına dair fikir bildirirlər. Bu sırada D.Tuskun Ermənistanda verdiyi bəyanatlar maraqlı təsir bağışlayıb. Aİ rəsmisi açıq bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları çərçivəsində və Helsinki Yekun Aktının müddəalarına uyğun həll edilməlidir. Bu isə Ermənistanın təcavüzkarlığını təsdiq etmək anlamına gəlir. Aİ Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını müdafiə edir. Bu mövqe “Şərq tərəfdaşlığı” proqramının 10 illik yubileyinə həsr edilmiş beynəlxalq konfransda da özünü göstərib. Bütün bunların fonunda vurğulanan məqamların üzərində geosiyasi aspektdə daha geniş dayanmağa ehtiyac görürük.***




## Tuskun sözləri: ermənilər çox kədərləndilər

Avropa İttifaqının “Şərq tərəfdaşlığı” proqramının 10 illiyini təntənəli qeyd etməsi böyük əks-səda doğurub. Bu hadisəni qlobal geosiyasi proseslərlə əlaqələndirirlər. Həmin səbəbdən ekspertlər yubiley tədbirlərini konkret geosiyasi dinamikanın fonunda qiymətləndirirlər. Burada Aİ Şurasının Prezidenti D.Tuskun Cənubi Qafqaza səfərinin də geosiyasi analizi verilir. Bu da təbii ki, aktual məsələdir. Çünki D.Tuskun regionla bağlı məsələlər haqqında söylədiklərinin əhəmiyyəti çoxdur.

D.Tusk Ermənistanda bir neçə mesaj verib. Onun baş nazir Nikol Paşinyanla görüşünü şərh edən erməni ekspertlər həqiqəti gizlətməyə çalışsalar da, ona tam nail ola bilməyiblər. Bu, daha çox Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı D.Tuskun ifadə etdiyi fikirlərə aiddir. Aİ Şurasının Prezidenti bəyan edib ki, münaqişə sülh yolu ilə beynəlxalq hüquq çərçivəsində və Helsinki Yekun Aktına uyğun həllini tapmalıdır. Bu, birbaşa İrəvana istiqamətlənmiş mesajdır. Yəni, Brüssel münaqişənin həllində beynəlxalq hüquqdan kənara çıxıb təcavüzkarı dəstəkləmək fikrində deyil.

Əlbəttə, bu məsələyə erməni ekspertlər dərhal münasibət bildiriblər. Onlar D.Tuskun Bakıda münaqişə ilə bağlı dediyi fikirləri də analiz edərək Aİ-nin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsindən məyus olduqlarını gizlətməyiblər. Bunun fonunda D.Tuskun bir dəfə də olsun “xalqların öz müqəddəratını təyin etmək hüququ”ndan danışmamasına təəccübləniblər. Buradan belə qənaətə gəlmək olur ki, D.Tusk başlıca prinsip kimi ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığını götürür. Əslində, bu, elə ədalətli mövqedir. O başqa məsələdir ki, ermənilər indiyə qədər əsas olaraq öz haqsız mövqelərinə uyğun olan fikirlər eşidirdilər.

Bu məqamın fonunda maraqlı olanı, Brüsselin, ümumiyyətlə, Aİ-Ermənistan münasibətlərinə baxışıdır. D.Tusk ifadə edib ki, Aİ Ermənistanla əlaqələri genişləndirmək fikrindədir. Ancaq bir neçə şərt yerinə yetirilməlidir. İrəvan islahatlar aparmalıdır. Bu, korrupsiya ilə mübarizəni, məhkəmə sistemini, idarəetmənin başqa aspektlərini, insan haqlarını və s. əhatə etməlidir. Brüsselin Ermənistanla əlaqəli mövqeyi bu şərtlərə əməl edilib-edilməməsi ilə bağlı olacaq.

Həmin mövzular ətrafında D.Tuskun N.Paşinyanla diskussiyası da olub. Belə çıxır ki, onlar hansısa məqamlarda razılaşa bilməyiblər, yanaşmalar fərqli olub. Təbii ki, Brüssel aydın görür ki, Ermənistan rəhbərliyi konkret islahatlar aparmaq əvəzinə imitasiyalara üstünlük verir. İrəvan Brüsseldən yardımları artırmağı tələb edir. Aİ rəhbərliyi konkret fəaliyyət planı olmadan yardımdan danışmağın əsassız olduğunu bəyan edib. Bu məqam ətrafında tərəflərin fikir ayrılığı hələ də qalır. Bir sıra informasiya mənbələri Aİ-nin Ermənistana yardımı artırdığından bəhs etsələr də, hələ real bir fakt yoxdur.

Buna baxmayaraq, görünür, Brüssel Ermənistana yardım edəcək. Məlumdur ki, Avropa ölkələri bəzi mülahizələrə görə Ermənistana loyal münasibətdədirlər. Bunun dəyişdiyini göstərən proseslər gözə dəymir. Lakin yeni bir məqam özünü göstərməkdədir. Aİ artıq Dağlıq Qarabağ məsələsini Ermənistanın daxili problemlərindən ayırır. Münaqişənin həlli üçün erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması şərti mütləqdir. Bu kontekstdə statuskvonun dəyişməsi də vacib şərtdir.

Belə çıxır ki, D.Tuskun Ermənistana səfərinin Azərbaycana olan səfərindən əsas fərqi İrəvanda daha çox diskussiya xarakterli müzakirələr aparması olub. Bakıda isə başlıca olaraq yeni əməkdaşlıq perspektivləri pozitiv fonda müzakirə edilib. Bu məqam bütövlükdə Aİ-nin Cənubi Qafqaz ölkələrinə münasibətinin mühüm bir aspektini ifadə etməkdədir. Həmin bağlılıqda D.Tuskun Batumidə “Şərq tərəfdaşlığı”nın 10 illiyi münasibətilə təntənəli tədbirdə ifadə etdiyi fikirlər maraqlı görünür.

## “Şərq tərəfdaşlığı”: iki yeni məqamın qarşılıqlı əlaqəsi

Aİ Şurasının Prezidenti Batumidə “Şərq tərəfdaşlığı” proqramının 10 illik yubileyinə həsr olunan yüksək səviyyəli beynəlxalq konfransda çıxışı zamanı maraqlı iki məqamı vurğulayıb. O deyib: “Tərəfdaş ölkələrlə siyasi və iqtisadi inteqrasiyanın davam etdirilməsi və daha da gücləndirilməsi üçün yeni imkanlar nəzərdən keçiriləcək. Əməkdaşlığın daha da güclü olması üçün dövlətlərlə yanaşı, vətəndaş cəmiyyəti və biznes ictimaiyyətinin də dəstəyi tələb olunur. “Şərq tərəfdaşlığı” proqramının uğurlu olduğunu gündəlik həyat təsdiq edir”.

Bu fikirdən aydın olur ki, Aİ “Şərq tərəfdaşlığı” proqramı ilə bağlı qarşıya yeni vəzifələr qoyub. Birincisi, bu proqram çərçivəsində tərəfdaş ölkələrlə siyasi və iqtisadi inteqrasiya daha da gücləndiriləcək. Deməli, təşkilat nəinki bu proqramı bir kənara qoymaq fikrindədir, hətta onun daha səmərəli olması üçün yeni imkanlar axtarışındadır. Bunun mümkün nəticələrindən biri postsovet məkanında, o cümlədən Cənubi Qafqazda geosiyasi mübarizənin daha da gərginləşməsi ola bilər.

Artıq bu gərginliyin ilk əlamətləri özünü göstərməkdədir. Belə ki, Batumidəki konfransda D.Tusk qiyabi olaraq Rusiya Prezidenti Vladimir Putinlə siyasi-ideoloji diskussiyaya girib. Aİ Şurasının Prezidenti deyib ki, V.Putinin “SSRİ-nin dağılması XX əsrin geosiyasi fəlakətlərindən biri idi” fikri doğru deyil. Əksinə, bu hadisə sovet xalqları, o cümlədən ruslar üçün bir “şərəf məsələsi, xeyirxahlıq mücəssəməsi idi”. Bundan gürcülər, ukraynalılar və başqa xalqlar faydalandılar. Bununla D.Tusk Rusiya rəhbərliyinin postsovet məkanında öz ideologiyasını gücləndirmək niyyətinə qarşı olduğunu nümayiş etdirir.

Həmin kontekstdə də D.Tusk ideoloji xarakterli ikinci bir məsələdə V.Putinlə mübahisə edib. O, liberalizm haqqında Rusiya Prezidentinin dediklərinin həqiqəti əks etdirmədiyini bəyan edib. Xatırladaq ki, V.Putin bir neçə gün öncə demişdi ki, liberalizm ideoloji konsept kimi artıq köhnəlib, təsir gücünü itirib və o, “mütləq dominantlıq” edə bilməz. D.Tusk buna cavab olaraq Batumidə bəyan edib ki, “liberalizm ideyasının köhnəldiyi haqqında əsas arqumentlə qətiyyətlə razı deyiləm”. Fikirlərinə davam edərək, Aİ rəsmisi onu da vurğulayıb ki, avtoritarizm və “şəxsiyyət kultu”nu köhnəlmiş hesab edir. Yekun olaraq D.Tusk Aİ-nin liberal dəyərləri tərəddüd etmədən müdafiə etdiyini bəyan edib.

Beləliklə, postsovet məkanında Rusiya-Aİ qarşıdurmasında ideoloji aspekt aktuallıq kəsb etməyə başlayır. Aİ liberalizm ideyalarını, Rusiya isə fərqli ideologiyanı təbliğ etməyə çalışır. Bu prosesin postsovet məkanında yeni çalarlara təkan verə biləcəyi istisna edilmir.

İkinci məqam, bizcə, məhz bu faktorla bağlıdır. Belə ki, D.Tusk açıq bildirir ki, əməkdaşlığın güclənməsi üçün “dövlətlərlə yanaşı, vətəndaş cəmiyyəti və biznes ictimaiyyətinin də dəstəyi tələb olunur”. Yəni, konkret olaraq, ideoloji kontekst getdikcə daha çox önəm kəsb edir. Aİ bu vəziyyətdə vətəndaş cəmiyyəti və işgüzar dairələrlə daha fəal əlaqələr qurmaq niyyətindədir.

Bütün bunlar Aİ-nin “Şərq tərəfdaşlığı” proqramı çərçivəsində fəallığı artırmaqda qərarlı olduğunu göstərir. Bu prizmadan D.Tuskun Cənubi Qafqaz turnesi maraq doğurur. Konkret ifadə etsək, Aİ qlobal geosiyasətdə mövqeyini gücləndirmək üçün yeni mərhələyə başlayır. Və bu mərhələdə “Şərq tərəfdaşlığı”nın ayrıca yeri vardır. Bu səbəbdən Batumidə 2020-ci ilə qədər əməkdaşlıq planı və cari geosiyasi vəziyyət əsas müzakirə obyekti olub. Tədbirdə əsas istiqamətlər üzrə əməkdaşlığın möhkəmlənməsi, həmçinin inteqrasiyanın təşviqi diqqət mərkəzində olub. Bu kontekstdə də münaqişələrin həllinə daha çox diqqət yetirilməyə başlanılıb. Bütün bunlar yaxın perspektivdə postsovet məkanında maraqlı geosiyasi proseslərin vüsət ala biləcəyinə işarədir.

**Newtimes.az**

## Müsbət rəy

Biz, "Təmir Tikinti AZ NY" QSC –nin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, maliyyə hesabatları 31 dekabr 2018-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin axını üzrə Kommersiya təşkilatları üçün Milli Muhasibat Uçotu Standartlarına (KTMMUS) müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normalara uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etika məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**"GROW AUDIT AND CONSULTING" MMC**

**Abdurahmanov Orxan Əlisəfa oğlu**

**Maliyyə Vəziyyəti Haqqında Hesabat** — *Azərbaycan manatı ilə*

| | 31 Dekabr 2018 | 31 Dekabr 2017 |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| ***Uzunmüddətli aktivlər*** | | |
| Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər) | 426,621 | 176,722 |
| **Cəmi uzunmüddətli aktivlər** | **426,621** | **176,722** |
| ***Qısamüddətli aktivlər*** | | |
| Mal-material ehtiyatları | 7,816 | 7,858 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12,591 | 106,760 |
| Alınmış sərvətlər üzrə ƏDV | - | 13,424 |
| Vergi və sosial ayırmalar üzrə artıq ödəmə | 34,203 | 41,199 |
| Gələcək dövrün xərcləri | 13,534 | 9,496 |
| **Cəmi qısamüddətli aktivlər** | **68,144** | **178,737** |
| **CƏMİ AKTİVLƏR** | **494,765** | **355,459** |
| **Kapital və öhdəliklər** | | |
| **Kapital** | | |
| Nizamnamə kapitalı | 194,436 | 194,436 |
| Əlavə kapital | 343,857 | 43,554 |
| Yığılmış zərər | (376,134) | (555,428) |
| **CƏMİ KAPİTAL** | **162,159** | **(317,438)** |
| **Öhdəliklər** | | |
| *Uzunmüddətli öhdəliklər* | | |
| *Qısamüddətli öhdəliklər* | | |
| Sair qısamüddətli öhdəliklər | 277,722 | 298,319 |
| Qısamüddətli kreditor borcları | 41,350 | 106,523 |
| Bank kreditləri | - | 255,000 |
| Gələcək dövrün xərcləri | 13,534 | 13,055 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **332,606** | **672,897** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **494,765** | **355,459** |

**"Təmir Tikinti AZ NY" QSC-nin İdarə Heyətinin Sədri:**

**Natiq Cavadov**

## ANAMA: İndiyədək 54 min hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib



Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) yaradılmasının 21-ci ili tamam olur. Bu illər ərzində agentlik tərəfindən 804 min kvadratmetr - yəni 54 min hektar ərazi mina və partlamamış hərbi sursatdan (PHS) təmizlənib. Ötən dövrdə 804 min partlamamış hərbi sursat, piyada və tank əleyhinə mina aşkarlanaraq zərərsizləşdirilib.

Bunu iyulun 16-da ANAMA-nın direktoru Qəzənfər Əhmədov AZƏRTAC-a müsahibəsində deyib. Q.Əhmədov qeyd edib ki, təkcə bu il 122 təcili və təxirəsalınmaz əməliyyat çıxışı olub, 17 min ədəd müxtəlif çaplı patron aşkarlanıb, 1700 PHS zərərsizləşdirilib. Piyada əleyhinə 17, tank əleyhinə 20 mina və təlim məqsədli 30 mina aşkarlanaraq zərərsizləşdirilib. Əsas məqsədimiz odur ki, işğal altındakı torpaqlarımız tezliklə azad edilsin və orada təmizləmə işlərinə başlayaq.

Agentlik tərəfindən bir neçə böyük layihənin uğurla icra olunduğunu vurğulayan ANAMA-nın direktoru bildirib: "Biz Türkiyədə beş böyük layihəni icra etmişik. Gələn il Türkiyədə yeni layihə açılacaq və tender elan olunacaq. Biz orada da iştirak etməyi planlaşdırırıq. ANAMA NATO və BMT ilə də sıx əməkdaşlıq edir. NATO çərçivəsində biz iki böyük layihə - "Saloğlu" və "Ceyrançöl" layihələrini uğurla başa çatdırmışıq. Bundan başqa, agentlik Gürcüstandan və digər ölkələrdən olan mütəxəssislər üçün təlimlər keçib".

## Bakı metrosunda siqaret çəkən şəxs tutularaq cərimələndi



Bakı metrosundan istifadə qaydalarını pozaraq vaqonda siqaret çəkən şəxsin kimliyi məlum olub. Daxili İşlər Nazirliyinin (DİN) və Bakı Şəhər Baş Polis İdarəsi rəhbərliyinin göstərişi əsasında Metropolitendə Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən axtarış tədbirləri nəticəsində videogörüntülərdəki şəxsin Sabunçu rayon sakini, əvvəllər məhkum edilmiş Fərəcullayev Ceyhun Vaqif oğlu olduğu müəyyənləşdirilib. Həmin görüntülərin isə iyulun 15-də "28 May" - "Həzi Aslanov" stansiyaları arasında hərəkət edən vaqonda lentə alındığı məlum olub. Metropolitendən istifadə qaydalarını pozan şəxs saxlanılaraq şöbəyə gətirilib. O, törətdiyi əməli etiraf edərək peşman olduğunu səmimiyyətlə bildirib.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, faktla bağlı Ceyhun Fərəcullayev barəsində Polis Şöbəsində İnzibati Xətalar Məcəlləsinin 306.4-cü (Metropolitendən istifadə qaydalarının pozulması, keçidlərdə və platformalarda, vaqonlarda siqaret çəkmə) maddəsi ilə protokol tərtib edilib və o, cərimələnib.

Daxili İşlər Nazirliyi vətəndaşlara müraciət edərək bildirir ki, stansiya ərazilərində olan zaman qarşılaşdıqları qanun pozuntuları və digər xoşagəlməz hallar barədə istənilən vaxt Metropolitendə Polis Şöbəsinə dərhal məlumat versinlər.

## Cinayət əməllərinə görə axtarışda olan Quba sakini Qazaxıstanda saxlanılıb




Törətdiyi ağır cinayət hadisələrinə görə 2016-cı ildən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin səkkiz maddəsi ilə axtarışda olan Quba rayon sakini, 31 yaşlı Sərxan Əkbərov saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Quba regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə S.Əkbərov Quba Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən uğurlu əməliyyat-axtarış tədbirləri nəticəsində Qazaxıstan Respublikasının Nur-Sultan şəhərində tutulub.

Sərxan Əkbərov 2016-cı ildə bir qrup şəxslə qabaqcadan əlbir olaraq, rayon ərazisində bir neçə fərdi evə qanunsuz daxil olub, evlərdən pul, qızıl-zinət əşyaları və elektron avadanlıq oğurlamaqla zərərçəkmişlərə küllü miqdarda maddi ziyan vurub. Sonuncu cinayət hadisəsi zamanı ev sahibəsinin evdə olduğunu görən dəstə üzvləri qadının əllərini və ağzını bağlayaraq, ona müxtəlif dərəcəli bədən xəsarətləri yetirməklə evdən külli miqdarda pul və mobil telefon ələ keçiriblər. Cinayətkar dəstənin dörd üzvü - Quba rayon sakinləri Raqib Kərimov, Faiq Xanməmmədov, Aftandil Əhmədov və Afina İxiilova cinayət hadisələrinin törədilməsindən bir müddətdən sonra tutularaq məsuliyyətə cəlb olunublar.

# Xəyanət düyünləri haçalandıqca...

*Yaxud quduz oğru it olan Əli Kərimli ilə bağlı reallıqlar...*

**Həqiqətən də, xəyanəti gizlətmək olmaz. Necə deyərlər, haqq nazilər, amma üzülməz. Hansı cildə girirsən, gir, hansı oyunlar, şoular göstərirsən göstər, xeyri yoxdur, gec-tez iç üzün ortaya çıxır. Bəli, AXCP sədri Əli Kərimlinin üzünə baxmaq kifayətdir ki, hansı yuvanın əxlaqsızı, satqını və mənəviyyatsız olduğunu biləsən. Psixoloqlar Ə.Kərimlinin üzünə baxmaqla, bu deyilənləri bir daha təsdiqləyə bilərlər. Hər şeyini 5-10 qranta satan Vətən xaini indi yenidən sosial şəbəkələrdən mitinq çağırışları etməyə başlayıb. Ay bədbəxt, 25 ildir ki, bu çağırışı edirsən, nə əldə etmisən? Kim olsa, ölüb yerə girər, ancaq Ə.Kərimli bu hisslərdən o qədər uzaqdır ki... Çünki xarici qüvvələrin göndərdiyi maliyyəni mənəviyyatdan üstün sayan AXCP sədrinə qarşı, artıq silahdaşları da "ağ" olublar. Ə.Kərimli ilə bağlı keçirilən məhkəmə zamanı bir çox mətləblər üzə çıxdı.**

### "Siyasi karyerası" tükənən Ə.Kərimlinin erməniyə məhəbbəti...



Bu gün tükənən, ideoloji simasını itirən AXCP sədrinin, sosial şəbəkələr vasitəsi ilə mitinq çağırışı etməkdə məqsədi bəllidir. Necə deyərlər, həm ziyarət, həm ticarət. Yəni mitinq keçirməklə, xarici qüvvələrin tapşırıqlarını yerinə yetirməklə qran əldə etməklə, həm də "varlığını" nümayiş etdirməkdir. Tərcümeyi-halı, demək olar ki, xəyanət və satqınlıqdan ibarət olan Ə.Kərimli, yenə də karyerasını qorumaq üçün düşərgədaxili gərginlik yaratmaqla partiyaları qarşı-qarşıya qoyur. "Qara məni basınca, mən qaranı basım" metodu ilə Ə.Kərimli "sudan quru çıxmaqla", nə qədər alçaq və mənviyyatsız olduğunu göstərməkdədir.

Ə.Kərimlinin son günlər ölkəmizdə aparılan inqilabi sosial islahatlarla bağlı düşmən ölkənin sosial şəbəkələrində - erməni mətbuatında AXCP sədrinin statusları, Azərbaycanla bağlı böhtanlarının manşetə çıxarılması deyilənlərin reallığıdır. Belə ki, bu gün dünya birliyinin Azərbaycanın gücünü, qüdrətini, iqtisadi inkişafını təsdiqlədiyi, ədalətli mövqeyimizi dəstəklədiyi bir məqamda, düşmən ölkənin mətbuatını, davamlı olaraq, Azərbaycanın əleyhinə yazılarla təmin edən Ə.Kərimlinin vərdişindən əl çəkməməsi də təəccüblü deyil. Çünki "qurd dumanlı gün axtarar" misalı kimi, özünə sərf edən məqamdan məharətlə istifadə edən Ə.Kərimli müstəqilliyimizi qəbul etməyən dairələrin maraqlarını gerçəkləşdirmək naminə aparılan təxribatların önündə getməklə, düşərgədə də sabitliyin yaranmasında maraqlı deyil.

### Tarixi yalanlar və saxta vədlər...

Bu yerdə jurnalist Eynulla Fətullayev Ə.Kərimlini quduz oğru itlərə bənzətməsi lap yerində deyilmiş ifadədir. E.Fətullayev özünün "facebook" hesabında AXCP sədri, və onun tərəfdarlarına həsr etdiyi statusda maraqdoğurucu iddia ilə çıxış edərək bildirib ki, Ə.Kərimli və digər murdar cəbhənin virusları oğru itlərdir: "Bu siyasi cinah öz murdar mahiyyətini ortaya qoyur. Məncə, günahkar Ayaz Mütəllibovdur. 1992-ci ildə bu nadan siyasi kütləni quduz itlər kimi güllələsəydi, Azərbaycan siyasətindən belə üfunət gəlməzdi... Üfunət iyi verənlər "siyasi müha-cir" adı ilə Avropanın zibilliklərində eşələnirlər. ABŞ-da yaşayan xəyanətkar Sevinc Osmanqızı üfunət iyi verən əsl satqınçılıq, xəyanətkarlıq, riyakarlıq və nəhayət, həyasızlıq ünsürləridir".

Bu həqiqətən də belədir. Ermənipərəst dairələrin qrantları hesabına Azərbaycana qarşı satqınçılıq edən bu oğru itlər - Həbib Müntəzir, Arzu Qeybulla, Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Arif Məmmədov, Qənimət Zahid, Sevinc Osmanqızı, Natiq Güləhmədoğlu, Fikrət Hüseynov, Ataxan Əbilov, Arif, Leyla, Ramiz Yunus kimi antimilli şərəfsiz ünsürlər bilməlidirlər ki, istifadə olunub yararsız halda zibilliyə atılırlar. İndi zibilliyə atılan bu əxlaqsızlar qaşınmayan yerdən qan çıxarmaq üçün mitinq keçirməklə, guya xalqın "qayğılarını" nümayiş etdirmək istəyirlər. Ancaq bu, baş tutan iş deyil. Çünki sizin kimi satılıb-satanların qatarı çoxdan gedib. Xalq artıq sizin kimi şərəfsizləri çoxdan arxivin küncünə atıb.

### Sərdar Cəlaloğlu: "Öncə, müxalifətin düşdüyü vəziyyətə baxmaq lazımdır"

ADP sədri Sərdar Cəlaloğlu AXCP sədri Ə.Kərimlinin son günlər sosial şəbəkələrdə yenidən mitinq çağırışına cavab olaraq bildirib ki, artıq mitinq keçirmək çıxış yolu deyil: "Bunu 25 ildir görürük. Nəticə göz qabağındadır: "Bu gün Azərbaycanda aparılan islahatlara münasibət bildirməzdən öncə, müxalifətin düşdüyü vəziyyətə baxmaq lazımdır. Bu, lap kəsəyin oturub, daş üçün ağlamağına bənzəyir. Müxalifət öz uğursuzluğunu araşdırsın, sonra başlasın iqtidarda nöqsan axtarmağa". Bəli, budur həqiqət. Azərbaycan iqtidarı dövlətin, millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Ə.Kərimli və onun kimi antimilli ünsürlər barəsində sərt ölçü götürməli və cəmiyyətdən təcrid etməlidir.

***Rəfiqə HÜSEYNOVA***

---



RƏFİQƏ

# Kor-kora kor deməsə...

Düzü son günlərdə əlləri hər şeydən üzülən dağıdıcı düşərgə sakinləri, bir ara oturub-oturub fikirləşdilər ki, necə etsinlər ki, siyasi meydanda qalsınlar. Başladılar bir-birinin surətinə cinayət əməllərini çırpmağa. İqbal Arifi, İsa Əlini, Əlisi Cəmili, Pənah da hamısını tənqid etməyə. Qəribədir. Hamsı günahkar ancaq bir-birilərini günahkar sayırlar. Bu günlərdə ümidsiz qalan "Ümid" partiyasının sədri İ.Ağazadə yenidən sosial şəbəkələrdə günahkar axtarışını davam etdirməyə. Öz-özümə sorğu edirəm: əcəba, nə istəyir İqbal "bəy"? Ötən dəfə danışdın da "xatirələrini", indi bir də nə axtarırsan? Axı, siz o kəslərsiniz ki, 2003-cü ildən artıq arxivə atılıb, fatihənizi də xalq verib. Bəlkə də bunu bir də ağartmağın yeri deyil. Niyə qaşınmayan yerdən qan çıxarırsınız. Çünki 25 il ölü olduğunuz kimi, təfəkkürləriniz də elə ölüdür və görünür, bu ölü təfəkkürlə elə zənn edirsiniz ki, "bəlkə də qaytardılar" xəyalınız gerçəkləşə bilər... İndi isə gördünüz ki, müstəqil, güclü ölkə və onun xalqı güclü liderlə birlikdədir. Və başladınız "xatirələrlə yaddaşlarda qalmağa". Ancaq bilin ki, haqqdan və xalqdan qaçmaq olmaz.

Elə bu günlərdə "Ümid" partiyasının sədri İqbal Ağazadə yenə də sosial şəbəkələrdə "Azadlıq salnaməsi"ndən danışarkən, Müsavat başqanı A.Hacılı ilə 15-16 oktyabr 2003-cü il hadisələrini yada salaraq " özünü müxalifətin "ən güclü lideri" kimi təqdim edib, Müsavatın keçmiş başqanı İ.Qəmbəri isə qorxaq adlandırıb. Başqan A.Hacılı da "tərəfkeşlik" edərək, İqbalı bir daha "səviyyəli" olmağa çağırıb. İqbal da müsavatdakıları "səviyyəsizlər səviyyəsizlərin yanında olar" deyib, xalqdan oğurlanan pulları qadınların alt paltarında hara qaçırdıqlarını soruşub: "Əlbəttə ki, cavab verməyə üzün də yoxdur. Çünki o milyonlarla dollar sən A.Hacılının cibinə gedib".

Elə bu "xatirələrə" qoşulan sabiq müdafiə naziri R.Qazıyev İ.Qəmbərlə C.Həsənlinin həqiqətlərdən qaçdığını, 3 milyon dollar pulu aradan çıxardıqlarını dedi: "AXC-Müsavat rəhbərləri bünövrədən satqın olublar. Ləkəli və satqın olan bu adamlar həyasızın həyasızıdırlar".

Elə bunun ardınca AXP sədri P.Hüseyn isə müxalifət dostlarını elə "mat" etdi ki, necə deyərlər, üzlərinə tüpürsəydi, ondan yaxşı idi: "Yaranmış vəziyyətlə dəqiq demək lazımdır. Nəinki 15-16 oktyabrda, bu günə qədər olanların bir adı var: MƏĞLUBİYYƏTDİR. Öz miqyasına və nəticələrinə görə, ağır məğlubiyyətdir", P.Hüseynin sonrakı sözü isə, bir daha müxalifətin bu günə kimi nə düşüncəsi, nə də təfəkkürü dəyişib.

Bu yerdə atalar yaxşı deyib, kor-kora kor deməsə, bağrı çatlar. Bax budur, pas atmış müxalifətin düşüncəsi, dönə-dönə qaşınmayan yerdən qan çıxarmaq. Nə dünyanın axırıdır, nə də demokratiyanın və demokratik düşərgənin. İlan qabığını atır, ağaclar yarpağını tökür, yer örtüyünü dəyişir: nə ilan ölür, nə ağac quruyur, nə yer dağılır.

---

# Alternativ AXCP-dən Əli Kərimliyə daha bir ittiham

## Razi Nurullayev: "Onlar özləri bilmədən uçuruma yuvarlanır və necə zombiyə çevrildiklərinin də fərqinə varmırlar"

***"O, bu gün AXCP-ni təmsil edə bilməz. Çünki heç kimin gözləntisini doğrultmayıb, ona qoyulan sərmayələri batırıb və iflasa uğrayıb. Kərimli başa gətirilsə, hər şeyi bərbad edəcək və özü kimi ölkəni də iflasa aparacaq". Bu fikirləri alternativ AXCP-nin sədri, Əli Kərimlinin müavini olmuş Razi Nurullayev qarşı tərəfə həsr etdiyi siyasi təhlilində qeyd edib.***



Alternativ AXCP-nin sədri Ə.Kərimlinin siyasi təşkilat daxilində avtoritar idarəçilik üsulu tətbiq etdiyini bildirib: "Demokratik cəmiyyət quruculuğu uğrunda mübarizə aparan siyasətçilər, ilk növbədə, öz ətraflarında demokratik ab-hava yaratmalıdırlar. Xalqın gözü tərəzidir. Amma o tərəzi hələ də, o demokratiyanı görə bilmir. Ə.Kərimlinin yanında daxili demokratiya yoxdur. Onun zombiləşdirdiyi tərəfdarları "Kərimlinin təklifləri məntiqli və müdrikdir, inandırmağı bacarır. Həm də elə təkliflər verir ki, imtina etmək mümkün deyil. Çünki o, bir məktəbdir, məntiqi və nitqi Demosfen nitqindən güclüdür, sözü Siseron müdrikliyinə kölgə salır, sərkərdəlik qabiliyyəti Sezarı üstələyib, yazdığı yazılar Sofokl pərəstişkarlarını utandırır" kimi iddialar səsləndirirlər".

AXCP sədrinin sabiq müavini, alternativ cəbhəçilərin sədri təəssüf edir ki, hələ də Ə.Kərimlinin yanında ona inananlar var və nə qədər gec deyil, onlar xəyanətkarın ətrafından kənarlaşmalıdırlar: "Əfsuslar olsun ki, hələ də ayılmayan cəbhəçilər və müxalifətçilər var. Onlar özləri bilmədən uçuruma yuvarlanır və necə zombiyə çevrildiklərinin də fərqinə varmırlar. Əcəba nədən Ə.Kərimlinin məntiqinin bütün cəbhəçilərin ən öndə gedənlərindən və ümumilikdə, onların cəminin ağıl və məntiqindən üstün olduğunu tirajlayırlar?"

"Müxalifətin zəif tərəflərindən biri onun öz orbiti ətrafında fırlanmasıdır" deyən R.Nurullayev Ə.Kərimlinin də bu istiqamətdə dövr etdiyini deyib: "Düz 15 ildir ki, "Yurd" sədri öz orbiti ətrafında fırlanır və hər tərəfə də dəmir pərdələr asılır. Bu pərdələrin o tərəfində kimin nə düşündüyü, nə fikirləşdiyi və nə istədiyi ona məlum deyil. Ə.Kərimli onun siyasətini dəstəkləyən adamlarla görüşür. Hər kəs də bilir ki, Ə.Kərimlinin müxalifətçilik süzgəci və meyarı nədir. Ona görə də, Ə.Kərimli ilə görüşən şəxs özünü onun istəyinə uyğun, onun "hava limanı"nda necə aparmalıdırsa, o cür aparır. Belə təəssürat yaranır ki, onu sevənlər də var. Reallıq başqadır. Bunu müşahidə edənlər bilir. Əslində isə, şəxsiyyətinə pərəstiş yaratdığı kəslərdən dolayı az sayda insanın ona siyasi simpatiyası var".

R.Nurullayevə görə, Ə.Kərimlinin özü deyib, özü eşidir, özü yazıb, özünə vurulur və yazdıqlarının hər sətrini, sanki dini ayə kimi tirajlanmasını istəyir. Cəbhəçilərin bir qismi isə heç oxumadan "Yurd" sədrinin adını nişanlayıb tirajlama siyasəti həyata keçirirlər: "Elə buna görə də, xalq ilə müxalifət arasında uçurum dərinləşib. Müxalifətin dediyini xalq, xalqın səsini isə müxalifət eşitmir. Artıq həm də onun tərəfindən xalqla müxalifət arasında əlaqə vasitələri sıradan çıxarılıb. Kiçik bir dairə cızaraq, içərisində oyun oynamaqla, əkstərəfə qışqırmaqla böyük siyasi məqsədlərə çatmaq mümkün deyil".

***R.RƏSULOV***

# Qloballaşma dövründə insan haqlarının müdafiəsinin aktuallığı

***XX əsrin sonlarından başlayaraq, müasir beynəlxalq münasibətlərin əsas tendensiyalarından biri olan qloballaşma prosesi dünya politoloqlarının müzakirə mövzusuna çevrilmişdir. Qloballaşma ümumdünya iqtisadi, siyasi və mədəni inteqrasiya və unifikasiya prosesidir.***

Qloballaşma siyasi, iqtisadi, sosial sferalarda, eləcə də, bütövlükdə, planetar səviyyədə kardinal dəyişikliklərə gətirib çıxarmış, dünyanın inkişaf strategiyasını əhəmiyyətli dərəcədə müəyyənləşdirən mühüm amilə çevrilmişdir. Obyektiv təmayüllər bazasında meydana çıxan qloballaşma prosesi ayrı-ayrı fərdlər, millətlər, dövlətlər, şirkətlər və digər subyektlər arasında, getdikcə sıxlaşmaqda olan qarşılıqlı bağlılıq və qarşılıqlı asılılıq yaratmaqla, vahid planetar məkanın (siyasi, iqtisadi, mədəni, ideoloji və s.) formalaşması istiqamətində artan templərlə irəliləməkdədir.

İnsan hüquqları-konkret tərifi olmayan bir anlayışdır, lakin qloballaşmadan daha qədimdir. Bu gün bu iki anlayış arasında sıx əlaqə vardır. Beynəlxalq sistemdə yeni dövlətdənkənar aktorların meydana çıxması nəticəsində, milli dövlətlər öz vətəndaşlarının hüquqlarını qorumaq üçün daha cox çalışırlar. Ümumiyyətlə, vətəndaşların və ayrı-ayrılıqda fərdlərin hüquqlarının qorunması qloballaşma prosesinin əsas prioritet istiqamətlərindən biri hesab olunur. Qloballaşma şəraitində insan hüquq və azadlıqlarının təmin olunması müasir beynəlxalq münasibətlərdə həlli vacib olan ən aktual problemlərdən biridir. Belə ki, son illərdə, dünyada baş verən hadisələr bu fikri bir daha sübüt etməkdədir.

Beynəlxalq münasibətlərdə son bir neçə ildə baş verən hadisələrə nəzər yetirdikdə, terror aktları, vətəndaş müharibələri, inqilablar, cinayətlər, illərlə davam edən ərazi və ya etnik münaqişələr, bütün bəşəriyyəti hədəfə alan nüvə silahının istehsalı kimi xoşagəlməz və dünyanın hər bir sakini üçün hədə olan hadisələrin nə qədər sürətlə yayıldığının şahidi oluruq. Təbii ki, belə bir şəraitdə ilk və həll edilməsi ən vacib məsələ pozulmuş hüquqların bərpa edilməsi və əsas insan hüquq və azadlıqlarına qarşı yönəlmiş bütün aktların qarşısının alınmasıdır.

Demokratik-hüquqi dövlət qurmaq, vətəndaş cəmiyyəti formalaşdırmaq, insan hüquqları amili nəzərə alınmadan, qeyri-mümkündür. Xalqın iradəsi üzərində qurulan hər bir dövlətin, o cümlədən, Azərbaycan dövlətinin başlıca məqsədi və fəaliyyət istiqamətləri xalqın milli maraqlarını qorumaq, vətəndaşlarının hüquq və azadlıqlarını təmin etməkdən ibarətdir.

İnsan hüquqlarının və əsas azadlıqların təmin olunması uğrunda həyata keçirilən çoxəsrlik mübarizə İkinci Dünya müharibəsindən sonra daha da geniş vüsət aldı. Müharibədən dərhal sonra - 1945-ci il oktyabrın 24-də BMT-nin Nizamnaməsi qəbul olundu və az sonra, bu Nizamnamənin 68-ci maddəsinə uyğun olaraq, İnsan Hüquqları Komissiyası yaradıldı. Məhz bu komissiyanın səyləri nəticəsində, 1948-ci il dekabrın 10-da İnsan Hüquqlarına dair Ümumdünya Bəyannaməsi qəbul olundu. Bir sıra Avropa dövlətləri 1949-cu ilin avqustunda Avropa Şurasının Nizamnaməsini qəbul edərək, əsas məqsədi insan hüquqlarının müdafiəsi olan beynəlxalq təşkilatın əsasını qoydular. Avropa Şurasının təsis etmiş dövlətlər 1950-ci il noyabrın 4-də Romada “İnsan Hüquqlarının Müdafiəsi və Əsas Azadlıqlar haqqında” Avropa Konvensiyasını qəbul etdilər.

Konvensiyada əks olunmuş prinsiplərə uyğun olaraq, 1959-cu ildə Strasburqda İnsan Hüquqları üzrə Avropa Məhkəməsi fəaliyyətə başladı. 1966-cı ildə BMT-nin himayəsi ilə “Sosial-İqtisadi və Mədəni Hüquqlara dair Beynəlxalq Pakt”, “Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakt” və ona əlavə olaraq, Protokol qəbul olundu. Bu sənədlər 1976-cı ildə qüvvəyə mindi. Hər bir kəsin Azərbaycan Respublikasının Konstitusiyasında və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlərdə təsbit olunmuş hüquq və azadlıqları vardır. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin I hissəsinə uyğun olaraq, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Bu ali məqsədin həyata keçirilməsi vasitələrindən biri insan hüquq və azadlıqlarının təmin olunması sahəsində qanunların qəbul edilməsi və onların təbliğ olunmasıdır. Azərbaycan Respublikası konstitusiyasının 71-ci maddəsinə əsasən, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi üçün təminat yaratmaq və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan bütün normativ- hüquqi aktlar konstitusiyaya və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq aktlara uyğun olmalıdır. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin II hissəsində birbaşa göstərilir ki, konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Buradan belə bir nəticə çıxarmaq olar ki, konstitusiyada insan və vətəndaş hüquqları və azadlıqları ilə bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə nisbətdə, fərqli qaydalar müəyyən edilibsə, beynəlxalq müqavilənin norması tətbiq edilməlidir. İlk baxışdan konstitusiyanın 12-ci maddəsinin II hissəsi ilə 151-ci maddəsi arasında müəyyən ziddiyyətin olduğu görünə bilər.

Elmi ədəbiyyatda, haqlı olaraq, qeyd edilir ki, hüquqi təfsirin məntiqinə görə, konstitusiyanın beynəlxalq hüquq üzərində üstünlüyünü nəzərdə tutan 151-ci maddə ümumi qaydanı ehtiva edir.

Konstitusiyanın 12-ci maddəsinin II hissəsi isə insan və vətəndaş hüquqlarının və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiqi ilə bağlı xüsusi hal nəzərdə tutur. Bu hal üçün hüquqi texnikanın prinsipi olan “lex specialis derogat legi generalis” (“xüsusi qanun ümumi qanunu dəyişdirir”) qaydası tətbiq edilir. Təbiidir ki, hər hansı bir məsələyə münasibətdə, onu tamamilə və aydın şəkildə həll edən xüsusi qayda mövcuddursa, belə hallarda ümumi qaydaya müraciət etməyə ehtiyac qalmır.

Qloballaşma dövlətin və cəmiyyətin hər bir sahəsinə təsir göstərdiyi kimi, insan hüquqlarına da əsaslı təsir göstərən amillərdəndir. Ümumiyyətlə, insan hüquqlarının fenomen kimi formalaşması, məhz qloballaşmanın cəmiyyətin həyatına fəal şəkildə nüfuz etməsi ilə birbaşa bağlıdır. Bu mənada, qloballaşma prosesinin insan hüquqları sahəsində müsbət və mənfi təsirləri özünü göstərir.

Qloballaşmanın insan hüquqları sahəsinə göstərdiyi müsbət təsirlər sırasına aşağıdakıları aid edə bilərik:

- İnsan hüquqlarının ümumbəşəri dəyər kimi formalaşması;
- İnsan hüquqlarına xüsusi əhəmiyyətin artması;
-İnsan hüquqlarının daha geniş tətbiq edilməsi, insan hüquqlarının yayılması ;
-İnsan hüquqların tətbiqi metodlarının genişləndirilməsi;
-İnsan hüquqları sahəsində maarifləndirilmənin artması;
-İnsan hüquqlarına sahəsində təcrübənin əldə edilməsi və paylaşılması;
-İnsan hüquqlarının milli (və ya dövlət) səviyyəsində olan problemlərinin aradan qaldırılmasında müştərək həll yollarının axtarılması və s.

Qloballaşmanın insan hüquqları sahəsində mənfi təsirlərinə aid aşağıdakı amilləri göstərmək olar:

-Qloballaşma prosesində insan hüquqlarından bəhanə kimi istifadə olunması, xüsusən də, digər dövlətlərin daxili işlərinə qarışılması, suverenliklərin təhlükə qarşısında qalması;
-İnsan hüquqlarının kortəbii şəkildə yerli şəraitə uyğunlaşdırılmadan tətbiq edilməsi;
-İnsan hüquqları anlayışının mərkəzləşməsi, yəni insan hüquqları anlayışının tez-tez istifadə edilməsinə qarşılıq olaraq, bu sahənin insanlara konkret nələr vəd etməsindən yan keçib, ümumiləşdirməyə üstünlük verilməsi;
-İnsan hüquqlarının ABŞ və Avropa ölkələri tərəfindən təzyiq silahı kimi istifadə olunması;
-Əksər hallarda insan hüquqlarının müdafiəsi adı ilə müdaxilə edilməsi;
-Öz milli maraqlarına görə, insan hüquqlarının pozulması adı altında bəzi istənilməyən dövlətlərin təcrid edilməsi;
-Qloballaşma və inteqrasiya prosesləri nəticəsində, dövlətlər arasında gömrük tariflərinin və şərtlərinin yumşaldılmasının, əhalinin yerdəyişməsinə qoyulan qadağaların aradan qalxmasının özü ilə gətirdiyi qeyri-qanuni miqrasiya, qaçaqmalçılıq, narkobiznes, mütəşəkkil cinayətkarlıq və digərlərinin insan hüquqlarının qorunması sahəsində ciddi təhdidlərə çevrilməsi.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

Qloballaşma şəraitində insan hüquqlarının qorunması dövlət və cəmiyyət qarşısında duran ən ümdə problemlərdən biridir. İnsan hüquqlarının müdafiəsi, dövlətdaxili və beynəlxalq səviyyədə olmaqla, iki cür təmin oluna bilər. İnsan hüquqları dövlətdaxili səviyyədə konstitusiya və qanunlar, insan hüquqlarının qorunmasında məsuliyyət daşıyan dövlət orqanları, ictimai birliklər vasitəsilə həyata keçirilir. İnsan hüquqlarının qorunmasında məsuliyyət daşıyan dövlət orqanlarına daxildir: Konstitusiya Məhkəməsi; İctimai birliklər; Məhkəmə orqanları. İnsan hüquqları beynəlxalq səviyyədə beynəlxalq təşkilatlar və beynəlxalq müqavilələr vasitəsilə təmin olunur. Beynəlxalq Ədalət Məhkəməsi, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, İnsan Hüquqları üzrə Panamerikan Məhkəməsi, BMT-nin İnsan Hüquqları üzrə Komitəsi və Beynəlxalq Cinayət Məhkəməsi insan hüquqlarının beynəlxalq səviyyədə qotunmasında xüsusi yer tutur.

Müasir dövrdə insan hüquqlarının həm müasir, həm də ənənəvi problemləri sırasında təhsilin rolunu göstərmək labüddür. Ümumiyyətlə, vətəndaş cəmiyyətinin qurulması, insan hüquqlarının tam və qüsursuz tətbiqi, hüquqi və demokratik dövlətin yaradılması, məhz təhsilin cəmiyyətdə oynadığı roldan çox asılıdır. Amma təhsilin səviyyəsinin artırılması, sadəcə, elmi biliklərin artırılması kimi yox, eyni zamanda, insanlara sərbəst düşüncə qabiliyyətinin qazandırılması, onların fərd kimi formalaşdırılması, azad seçimin tətbiq edilməsinin aşılanması kimi nəzərdən keçirilməlidir. Çünki hər bir cəmiyyət istənilən məsələyə öz milli prizmasından yanaşır və onu özününküləşdirərək, qəbul edir. Ona görə də, təhsil cəmiyyətin milli şüurunun formalaşdırılmasında əsas rol oynamalıdır.

Bütün bunlarla yanaşı, insan hüquqlarının beynəlxalq problemlərinə bir neçə məsələni də qeyd etmək olar ki, bu, məhz qloballaşmanın gətirdiyi yeniliklərlə bağlıdır. Məsələn, son dövrlərdə qloballaşma nəticəsində, dövlətlər arasında sərbəst insan hərəkətinin genişlənməsi, bu sahədə olan boşluqlardan insan alverinin genişlənməsində istifadə olunmasına şərait yaradır. İnsan hüquqlarında gender məsələsinin ön plana çəkilməsi, ailədaxili şiddət, insanlar arasında bir-birinə qarşı dözümsüzlük, əslində, cəmiyyətin daxilində olan problemlər olsa da, insan hüquqlarına beynəlxalq səviyyədə təsir göstərir. İnsanlar arasında texnologiyalar vasitəsilə əlaqələrin asanlaşması, xüsusən, internet vasitəsi ilə təbliğatın genişlənməsi və şəxsi maariflənmə bu problemləri aktuallaşdırmaqdadır. Qloballaşma prosesi nəticəsində, dövlətlər arasında sərhədlərin aradan qalxması, işçi qüvvəsinə olan tələbatın kəskinləşməsi insan hüquqları sahəsində bir sıra problemlərə səbəb olur ki, bunun başında insan alveri, rasizm və digərləri gəlir. Dünyanın müxtəlif yerlərində cəmiyyətlərin müxtəlif inkişaf səviyyəsi də insan hüquqları sahəsindəki problemlərin yaranma səbəblərindəndir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

səs

Son səhifə 17 iyul

## Gilas qanı təmizləyir və arıqlamağa kömək edir



Dadlı, sulu və tərkibi vitaminlərlə zəngin gilas yayın ən sevimli meyvələrindəndir.

Belə ki, gilas meyvələri immuniteti artırmaq və orqanizmi zəhərli maddələrdən təmizləmək xüsusiyyətinə malikdir. Öd kisəsində olan daşların parçalanıb tökülməsində gilasın tərkibində olan turşu birləşmələrinin böyük rolu var. Orqanizmdə olan artıq mayeni, zərərli qidaları bədəndən xaric edir, qanı təmizləyir və bunun nəticəsində arıqlamağa kömək edir. Hisə verilmiş qidaların qəbulundan sonra bir ovuc gilas yeyilməsi qidanın zərərli maddələrinin xaric olmasına səbəb olur. Məhz həmin xüsusiyyətlərinə görə gilas "qaraciyərin dostu" sayılır.

Qəbizlik və öskürək zamanı da gilas çox faydalıdır. Arıqlamaq istəyənlərə onun meyvələri ilə qidalanmaq məsləhət görülür. Gilas ağacının qabığının dəmləməsi qızdırmanı aşağı salır. Meyvənin saplağını dəmləyib içmək sidikqovucu kimi müsbət təsir göstərir. Qırmızı gilasın suyunun üz və boyun nahiyəsinə sürtülməsi dəridə olan qırışları açır və dərinin rəngi təmizlənir, təravətlənir.

## Günəş şüalarının dəriyə təsiri



Bütün canlılar üçün həyat mənbəyi sayılan günəş şüaları insanı depressiyadan qoruyur. Mütəxəssislər həmçinin günəş şüalarının D vitamini qaynağı olmaqla yanaşı, antibakterial təsirə malik olduğunu və qan dövranını yaxşılaşdırdığını da bildirirlər. Lakin bütün xeyirli cəhətləri ilə yanaşı xüsusən son dövrlər azon təbəqəsinin incəlməsi yer səthinə düşən radiasiyanın miqdarının normadan artıq olması günəşin insan səhhətinə neqativ təsirini artırır.

Qeyd edək ki, Yer kürəsinə A və B tipli ultrabənövşəyi şüalar düşür. B tipli şüalar insan dərisi üçün xeyirli olmaqla yanaşı dərinin rənginin dəyişməsinə də təsir göstərir. A tipli şüalar isə dərini qocaldır, qırışların, hətta bədxassəli şişlərin yaranmasına səbəb olur.

Paytaxtdakı 19 nömrəli poliklinikanın həkim-terapevti Gülnarə Məmmədova AZƏRTAC-a dediyinə görə, günəşin digər bir zərərli təsiri isə allergiyalar şəklində özünü göstərir. Məsələn, kosmetik vasitələr, ətirlər, dəriyə çəkilən müxtəlif kremlər günəş şüaları ilə birləşərək həssas dərilərdə allergik reaksiyalar yaradır: "Günorta saatlarında günəş şüalarının təsiri çox güclü olur. Xüsusilə qan təzyiqi olanlarda arterial təzyiqin yüksəlməsinə, ürək-damar sistemi xəstəlikləri riskinin, məsələn, infarkt, stenokardiya kimi xəstəliklərin, xüsusilə dəridə ləkələrin əmələ gəlməsinə səbəb olur.

Səhər saat 7-dən 11-dək, axşam saat 4-dən sonra böyüklərin və xüsusən kiçik yaşlı uşaqların günəş şüaları altında olması daha çox məsləhətdir. Xüsusən ağ və zərif dərisi olanlar günəş şüalarına qarşı daha diqqətli olmalıdırlar. Belə ki, həmin dəri tipi günəşə qarşı daha həssas olur. Onların günəş altında çox dayanmaması və bol maye qəbul etməsi lazımdır".

## Azərbaycan cüdoçusu dünya reytinq cədvəlində liderliyini qoruyub



Azərbaycan cüdoçusu Rüstəm Orucov (73 kq) dünya reytinq cədvəlində liderliyini qoruyub. Beynəlxalq Cüdo Federasiyası Budapeşt Qran-Prisindən sonra reytinq cədvəlini açıqlayıb. Qran-Pri yarışında bürünc medal qazanan Telman Vəliyev (73 kq) 31 pillə irəliləyərək 64-cü yerdə qərarlaşıb. Bu çəki dərəcəsində digər cüdoçumuz Hidayət Heydərov altıncı mövqedədir. Ağır çəkili cüdoçularımız Məmmədəli Mehdiyev (90 kq) dördüncü, Elmar Qasımov (100 kq) onuncu yerlərdədirlər. Uşangi Kokauri (+100 kq) isə bir pillə geriləyərək 15-ci pillədə qərar tutub. Komandamızın digər üzvləri Nicat Şıxəlizadə (66 kq) 26-cı, Kəramət Hüseynov 37-ci, Orxan Səfərov (hər ikisi 60 kq) 38-ci sırada qərarlaşıblar. Qadın cüdoçumuz İrina Kindzerska (+78 kq) isə dünya reytinq cədvəlində beşincidir.

## Avropa Gənclər Olimpiya Festivalında iştirak edəcək idmançılarla Milli Olimpiya Komitəsində görüş keçirilib



İyulun 16-da Azərbaycan Milli Olimpiya Komitəsində (MOK) XV Avropa Gənclər Olimpiya Festivalında iştirak edəcək idmançılar, məşqçilər və idman federasiyalarının nümayəndələri ilə görüş keçirilib. AZƏRTAC xəbər verir ki, görüşdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, festivalda iştirak edəcək Azərbaycan nümayəndə heyətinin rəhbəri və MOK-un idman idarəsinin rəisi Həsənağa Rzayev, Komitənin marketinq şöbəsinin rəisi Mehman Kərimov iştirak ediblər. Tədbirdə çıxış edən Çingiz Hüseynzadə Azərbaycanın bir neçə gündən sonra daha bir mötəbər idman turnirinə ev sahibliyi edəcəyini vurğulayıb. Komandamızın festivalda yaxşı nəticələr qazanacağına ümidvar olduğunu vurğulayan vitse-prezident deyib: "Əminik ki, gənc idmançılarımız Avropa Gənclər Olimpiya Festivalında uğurla çıxış edəcəklər. Bu festivalın 14-18 yaşlı gənclər üçün keçirildiyini nəzərə alaraq Beynəlxalq və Avropa Olimpiya komitələri üç layihə həyata keçirir. Bunlardan biri - "Olimpiya mədəniyyəti və təhsil" proqramı Azərbaycan Milli Olimpiya Komitəsi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə ölkəmizdə uğurla reallaşdırılır".

MOK-un idman şöbəsinin müdiri və festivalda Azərbaycan nümayəndə heyətinin rəhbəri Həsənağa Rzayev idmançıların bu mötəbər yarışa hazırlığı barədə məlumat verib.

Qeyd olunub ki, festivalda 48 ölkədən 3900 atlet idmanın on növü üzrə mübarizə aparacaq. Azərbaycanı "Bakı 2019"da 122 idmançı təmsil edəcək. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil edirlər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunacaq. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennis 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizə aparacaq. Komanda idman növlərində isə voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib. Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda isə ümumilikdə 30 oyunçu yer alıb.

## Messiyə məsləhət: KONMEBOL-dan üzr istə!



Argentina yığmasının hücumçusu Lionel Messi Cənubi Amerika Futbol Konfederasiyasının (KONMEBOL) korrupsiyaya qurşanmasını söyləyib. Argentina Ali İdman Arbitrajının üzvü Qustavo Abreu bildirib ki, Messi bu hərəkətinə görə konfederasiyadan üzr istəməlidir. TASS agentliyi xəbər verir ki, 32 yaşlı Messi KONMEBOL-u korrupsiyada ittiham etdiyinə görə onun milli yığma komandanın heyətində çıxışlarına iki il qadağa qoyula bilər. Beləliklə, argentinalı futbolçu 2022-ci ildə Qətərdə keçiriləcək dünya çempionatına seçmə turnirdən, habelə 2020-ci ildə Argentinada və Kolumbiyada keçiriləcək Amerika kubokundan kənarda qala bilər.

"Times of India" portalı Abreunun bu sözlərini sitat gətirib: "Mən Messiyə məsləhət görərdim ki, üzr istəsin. Çünki onlar Messiyə qarşı sanksiyalar tətbiq etmək istəyirlər". Abreu Argentina Futbol Assosiasiyasına "Barselona"nın futbolçusu ilə əlaqə saxlamağı və onun üzr istəməsini xahiş etmələrini təklif edib.

İyulun 7-də Argentina yığması Amerika kubokunda üçüncü yer uğrunda keçirilən matçda 2:1 hesabı ilə Çili komandasına qalib gəlib. Görüşün birinci hissəsində arbitr komandaların kapitanları Messi və Qari Medeli idmançıya yaraşmayan hərəkətlərinə görə meydandan kənarlaşdırıb. Oyundan sonra argentinalı futbolçu turnirdə hakimliyə qəti etiraz əlaməti olaraq mükafatlandırma mərasimində iştirak etməyib və KONMEBOL-u korrupsiyada ittiham edib. Yarımfinalda Argentina yığması birinciliyə ev sahibliyi edən Braziliya komandasına 0:2 hesabı ilə uduzub. Bu matç zamanı ekvadorlu arbitr Roddi Sambranonun qərarları ilə əlaqədar, meydanda bir neçə dəfə qalmaqal yaşanıb. Matçdan sonra Messi hakimlərin işini kəskin tənqid edib.

## XV Avropa Gənclər Olimpiya Festivalında Azərbaycanı 122 idmançı təmsil edəcək

İyulun 21-27-də Bakıda keçiriləcək XV Avropa Gənclər Olimpiya Festivalında Azərbaycanı 122 idmançı təmsil edəcək. Bunu iyulun 16-da Milli Olimpiya Komitəsinin (MOK) idman şöbəsinin müdiri Həsənağa Rzayev Festivalda iştirak edəcək Azərbaycan nümayəndə heyətinin tərkibinə daxil olan idmançılar və onların məşqçiləri ilə görüşdə deyib.

Nümayəndə heyətinin ümumilikdə 198 nəfərdən ibarət olacağını vurğulayan H.Rzayev qeyd edib ki, festivalda Avropanın 48 ölkəsindən 3900 atlet 135 dəst medal uğrunda yarışacaq. Avropa Gənclər Yay Olimpiya Festivalında atletlər idmanın 10 növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş üzrə yarışlarda qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600